RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 228 (9107) ÇƏRŞƏNBƏ, 19 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

◆ Zəfərin izi ilə




## Şərqi Zəngəzur möhtəşəm tarixi hadisəyə hazırlaşır

Sabah, oktyabrın 20-si Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində Zəngilanın işğaldan azad olunmasının ikinci ilinin qürur və sevinc hissini yaşayacaq.

Bu təqvim günü həm də ikiqat bayrama çevriləcək. Çünki həmin gün Şərqi Zəngəzur İqtisadi Rayonunda daha bir tarixi hadisə yaşanacaq. Vətən müharibəsindən sonra Böyük qayıdışın ilk ünvanı sayılan Zəngilan rayonunda Şərqi Zəngəzurun ilk hava qapısının açılış mərasimi olacaq.

Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevlə qardaşı Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə reallaşacaq. Xatırladaq ki, Türkiyə Prezidenti hələ sentyabr ayında Özbəkistan səfərindən sonra jurnalistlərə müsahibəsində bildirmişdi ki, Prezident İlham Əliyevin dəvəti ilə oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılışında iştirak etmək üçün Azərbaycana səfər edəcək.

Bununla da Rəcəb Tayyib Ərdoğanın təyyarəsi ikinci dəfə işğaldan azad olunmuş torpaqlarımıza enmiş olacaq. İlk dəfə 2021-ci il oktyabrın 26-da Qarabağda Füzuli Beynəlxalq Hava Limanına düşən Prezident təyyarəsi bir il sonra Şərqi Zəngəzur səmasında dövrə vurub Zəngilan aereportuna eniş edəcək.

Uçuş-enmə zolağının uzunluğu 3 min metr olan hava limanında tikinti işlərinə 2021-ci ilin mayında başlanılıb. Zəngilan Beynəlxalq Hava Limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq. Rayonun coğrafi yerləşməsi və burada olan geniş imkanlar Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün əlverişli şərait yaradır. Bu hava limanı Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafında böyük rol oynayacaq.

### Zəngilanı anasının qucağında tərk edən körpəyə Ağalı qucaq açdı

Bu gün Zəngilanda, xüsusilə də Ağalı kəndində həyat yenidən qaynayır. Böyük Zəfərin ilk möcüzəsi olan "ağıllı kənd"də hər kəs yaşayışından məmnundur. Buna Zəngilana səfərimiz zamanı bir daha şahidlik etmiş olduq.

Günəş şəfəqlərini səpib hər tərəfi nuruna boyadıqca "ağıllı kənd"in küçələrində hərəkətlilik artır. Kənd sakinləri ara-sıra evlərindən çıxıb işə tələsirlər. İnsanların üzündən məmnunluğu, qayğısızlığı sezməmək mümkün deyil.

→ 4

## Bakı şəhərinin qəsəbələrində avtomobil yollarının yenidən qurulması Prezidentin nəzarətindədir

Prezident İlham Əliyevin bununla bağlı imzaladığı sərəncamla Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 5,3 milyon manat vəsait ayrılıb



→ 2

## Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Müstəqilliyin Bərpası Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "18 oktyabr Azərbaycan".

## Dövlət müstəqilliyi hər bir vətəndaş üçün ən böyük sərvətdir

Oktyabrın 18-də parlamentin spikeri Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbəti plenar iclası keçirilib.

İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən ballistik raketlərdən atəşə tutulmasının ikinci ildönümü ilə bağlı fikirlərini diqqətə çatdırıb. "Həm Birinci, həm də İkinci Qarabağ müharibələri dövründə Ermənistan silahlı qüvvələri dinc əhaliyə qarşı çoxsaylı müharibə cinayətləri törətmişlər.



2020-ci il oktyabrın 17-də münaqişə zonasından kənarda yerləşən Gəncə şəhərinin mərkəzi qadağan olunmuş silahlardan, o cümlədən ballistik raketlərdən və kasetli bombalardan istifadə edilməklə növbəti dəfə atəşə tutulmuşdur. Bu dövlət terrorizmi aktı nəticəsində 15 nəfər dinc sakin həyatını itirmiş, 79 mülki şəxs yaralanmışdır.

Ümumiyyətlə, 44 günlük Vətən müharibəsi dövründə Gəncəyə 5 raket hücumu nəticəsində 26 dinc sakin həlak olmuş, 175 nəfər yaralanmışdır.

Onu da deyim ki, Gəncəyə qarşı terror aktlarının ildönümü ilə əlaqədar dünən Gəncədə anım mərasimləri, beynəlxalq konfrans və digər tədbirlər keçirilmişdir.

→ 3

## Fransa kütləvi tətilə başladı



→ 12

## Xarici səyyahlar Qarabağ və Şərqi Zəngəzurda erməni vəhşiliyinin şahidi oldular

İşğaldan azad edilmiş ərazilərimizə səfər edən müxtəlif ölkələrin diplomatları, rəsmi şəxsləri, jurnalistləri, səyyahları və digər nümayəndələri quruculuq işləri ilə tanış olurlar. Səyyahlar azad olunmuş ərazilərimizin hər yanında infrastrukturların sürətlə tikildiyini, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verildiyini, Şuşada möhtəşəm layihələr həyata keçirildiyini və digər rayon mərkəzlərimizin müasir formada yenidən qurulduğunu görürlər.

Bu səfərlər zamanı dünyanın müxtəlif ölkələrindən gələn qonaqlar eyni zamanda həmin ərazilərin işğal müddətində ermənilər tərəfindən bütün infrastrukturun məhv edildiyinin, mədəni-tarixi abidələrin dağıdıldığının, ekologiyaya qarşı terror törədildiyinin şahidi olurlar. Dünya səyyahları Qarabağa, Şərqi Zəngəzura səfərlərində gördükləri bu acınacaqlı mənzərələrə həm təəccüblənir, həm də təəssüflənirlər.

→ 9

## Ermənistan sülh müqaviləsini imzalamağa məcburdur

Azərbaycan 44 günlük Vətən müharibəsini parlaq zəfərlə başa çatdırdıqdan dərhal sonra Ermənistana iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün təkmil sülh modeli təklif edib. Ölkəmiz regionda təhlükəsizliyin, əməkdaşlığın, rifahın təmin edilməsinə yönəlik təşəbbüslərlə daim çıxış edib.

Lakin işğalçılıq eyforiyasından hələ də ayıla bilməyən Ermənistanın ötən vaxt ərzində sülh istiqamətində hansısa real addımlar atdığının şahidi olmamışıq. İşğalçı bu müddət ərzində barışığa aparan bütün yollarda maneə yaratmaqla məşğul olub, sülh istiqamətində gedən prosesləri yubatmağa, pozmağa yönəlik hər cür təxribata əl atıb.

Avropa İttifaqının vasitəçiliyi ilə keçən ilin dekabrından başlayan "Brüssel prosesi" sayəsində üçtərəfli görüşlərdə Ermənistan üzdə sülhə razı olduğunu bildirsə də hər dəfəsində sülh sazişinin bağlanması ilə əlaqədar əməli işlər görməkdən yayınmağa çalışıb.

→ 6



## İndi Azərbaycan həm də beynəlxalq nəqliyyat dəhlizlərinin qovuşduğu məkandır

→ 10

## C.Ə.Hüseynzadənin Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cəfər Əbdülhüseyn oğlu Hüseynzadə Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## N.A.Səmədovun Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nazim Adil oğlu Səmədov Azərbaycan Respublikasının Mərakeş Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## R.F.Aslanovun Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Fəxrəddin oğlu Aslanov Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## F.İ.Qurbanovun Azərbaycan Respublikasının Xorvatiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fəxrəddin İsa oğlu Qurbanov Azərbaycan Respublikasının Xorvatiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## M.N.İmanovanın Azərbaycan Elm Fondunun İcraçı direktoru təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mehriban Natiq qızı İmanova Azərbaycan Elm Fondunun İcraçı direktoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## Ş.K.Mehdizadənin Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şövqi Kamal oğlu Mehdizadə Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## S.Ə.Həsənovun Azərbaycan Respublikasının Livan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Səməd Əyyub oğlu Həsənov Azərbaycan Respublikasının Livan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## A.L.İmanovun Azərbaycan Respublikasının Xorvatiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Laçın oğlu İmanov Azərbaycan Respublikasının Xorvatiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## A.L.İmanovun Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında, eyni zamanda Kamboca Krallığında və Laos Xalq Demokratik Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Laçın oğlu İmanov Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında, eyni zamanda Kamboca Krallığında və Laos Xalq Demokratik Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## Göyçay Rayon İcra Hakimiyyətinin yeni başçısı kollektivə təqdim olunub

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Natiq Nuşravan oğlu Ağayev oktyabrın 18-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, təqdimatda Zeynal Nağdəliyev çıxış edib və dövlət başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

N.Ağayev ona göstərilən etimada görə minnətdarlıq edib.

## O.S.Qurbanovun Azərbaycan Respublikasının Mərakeş Krallığında, eyni zamanda Mavritaniya İslam Respublikasında, Seneqal Respublikasında, Mali Respublikasında, Portuqaliya Respublikasında, Tunis Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Oktay Sudef oğlu Qurbanov Azərbaycan Respublikasının Mərakeş Krallığında, eyni zamanda Mavritaniya İslam Respublikasında, Seneqal Respublikasında, Mali Respublikasında, Portuqaliya Respublikasında, Tunis Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## M.B.Əhmədzadənin Azərbaycan Respublikasının İtaliya Respublikasında, eyni zamanda San Marino Respublikasında, Malta Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondu yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Bahəddin oğlu Əhmədzadə Azərbaycan Respublikasının İtaliya Respublikasında, eyni zamanda San Marino Respublikasında, Malta Respublikasında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ümumdünya Ərzaq Proqramı, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondu yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## A.S.Şükürovun Azərbaycan Respublikasının Livan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ağasəlim Səmədağa oğlu Şükürov Azərbaycan Respublikasının Livan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## Bakı şəhərinin Binəqədi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Binəqədi rayonunun Biləcəri, Binəqədi, M.Ə.Rəsulzadə, Xocəsən və 28 May qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 5,3 milyon (beş milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 897, № 8, maddə 1690; 2019, № 1, maddə 60, № 3, maddələr 411, 416, № 6, maddə 1014, № 12, maddə 1923; 2021, № 5, maddə 434; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 avqust tarixli 1831 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2.6-cı yarımbəndə "istiqrazlar" sözündən əvvəl "fəaliyyətinin təmin edilməsi məqsədilə" sözləri əlavə edilsin;

1.2. 6.2-ci bənddə "798 000 000 (yeddi yüz doxsan səkkiz milyon)" sözləri "893 000 000 (səkkiz yüz doxsan üç milyon)" sözləri ilə əvəz edilsin;

1.3. 6.5-ci bənd ləğv edilsin.

2. Bu Fərmanın 1.2-ci bəndinin icrası "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 401-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 dekabr tarixli 1526 nömrəli Fərmanının 1.11.6.6.1-ci yarımbəndi ilə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra - Fond) nizamnamə kapitalının artırılması (güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi) üçün 2022-ci ilin dövlət büdcəsindən Fonda ayrılan 95,0 (doxsan beş) milyon manat hesabına təmin edilsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

4. Fond bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2022-ci il*

# Azərbaycanda iş və istirahət günlərinin yerləri dəyişdirilib

Azərbaycanda iş və istirahət günlərinin yerləri dəyişdirilib. AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı Qərar imzalayıb. Qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2022-ci il 7 noyabr iş günü ilə 5 noyabr istirahət gününün yerləri dəyişdirilib. Beləliklə, noyabr ayında ardıcıl 4 gün - 6, 7, 8 və 9 noyabr tarixləri qeyri-iş günü olacaq.

# Azərbaycan və Moldova arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq sənədi imzalanıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində ölkəmizdə səfərdə olan Moldovanın əmək və sosial müdafiə naziri Marçel Spatarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.



Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan və Moldova arasında əlaqələrin daim inkişaf etməkdə olduğunu, ötən dövrdə müxtəlif sahələr üzrə imzalanan 63 əməkdaşlıq sənədinin əlaqələrin genişlənməsinə imkan verdiyini bildirib.

İki ölkənin əlaqələrinin sosial sahəni də əhatə etdiyini diqqətə çatdıran S.Babayev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu ilə Moldova Milli Sosial Sığorta Kassasının fəal əməkdaşlığını qeyd edib.

S.Babayev bu ilin avqust ayında moldovalı həmkarı M.Spatar ilə görüşdə iki ölkə arasında əmək və sosial müdafiə sahəsində əlaqələrin inkişafına dair aparılan müzakirənin önəmini diqqətə çatdırıb.

Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin uğurları, ölkəmizdə geniş miqyas alan sosial islahatlar proqramı, xüsusilə əmək, məşğulluq və sosial müdafiə sahələrində son dörd ildə əldə olunmuş mühüm irəliləyişlər, sosial ödənişlərdə edilən ciddi artımlar barədə məlumat verilib.

DOST konsepsiyası, əmək, məşğulluq, sosial müdafiə sahəsində xidmətlərin avtomatlaşdırılması və proaktiv formada əhaliyə təqdim olunması ilə bağlı əldə olunan uğurlar diqqətə çatdırılıb. Nazirliklər arasında əlaqələrin, təcrübə mübadilələrinin genişləndirilməsi üçün böyük potensial olduğu vurğulanıb.

M.Spatar Moldavanın Azərbaycanla əlaqələrini daim genişləndirməkdə maraqlı olduğunu, iki ölkənin sosial sahədə əməkdaşlığının da daim genişlənəcəyinə əminliyini, hazırkı səfərinin də bu məqsədə yönəldiyini bildirib.

O, səfər zamanı DOST mərkəzi ilə də tanış olduğunu, Azərbaycanın DOST təcrübəsini öyrəndiklərini və DOST konsepsiyasını Moldovada tətbiq etmək niyyətində olduqlarını bildirib. M.Spatar həmçinin Azərbaycanın sosial sahədə elektron texnologiyaların, proaktiv təyinat mexanizmlərinin tətbiqi sahəsində təcrübəsinə maraq göstərdiklərini də diqqətə çatdırıb.

Görüşün yekunu olaraq S.Babayev və M.Spatar "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Moldova Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu imzalayıblar.

Sənəddə əmək, məşğulluq, əhalinin sosial müdafiəsi sahələrində müvafiq qanunvericiliyin və əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına nəzarətin təkmilləşdirilməsi, iş yerlərində təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi üçün preventiv tədbirlərin həyata keçirilməsi, işsiz və işaxtaran şəxslər üçün peşə hazırlığının təşkili, həssas əhali qruplarının məşğulluq imkanlarının genişləndirilməsi, əlilliyi olan şəxslərin tibbi, sosial və məşğulluq problemlərinin həlli, sosial xidmətlər və s. kimi sahələrdə gələcək əməkdaşlıq istiqamətləri əksini tapır.

Sənədin imzalanmasından sonra keçirilən brifinqdə S.Babayev və M.Spatar yeni imzalanan memorandumun iki ölkə arasında əmək, məşğulluq, sosial müdafiə sahələrində əməkdaşlığın inkişafında önəmli rol oynayacağına əminliklərini ifadə ediblər.

# Bakıda İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının iclası keçirilib

Oktyabrın 18-də Bakıda Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının (İƏT OA) ümumi yığıncağı keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Türkiyə, Pakistan, İndoneziya, İran və Mərakeşin ombudsman və insan hüquqları qurumlarının rəhbərləri iştirak ediblər.

Əvvəlcə "Qurani-Kərim"dən ayələr oxunub.

Yığıncağın Bakıda keçirilməsindən məmnun olduğunu deyən Türkiyə Respublikasının Baş ombudsmanı Şərəf Malkoç evsahibliyinə görə Azərbaycana minnətdarlığını bildirib. O, assosiasiyanın yarandığı gündən indiyədək fəaliyyəti barədə məlumat verib. Qeyd edib ki, 2014-cü il aprelin 29-da Pakistanın İslamabad şəhərində təsis olunan İslam Əməkdaşlıq Təşkilatının Ombudsman Assosiasiyası pandemiya dövründə də fəaliyyətinə fasilə verməyib və işini onlayn platformalarda davam etdirib.

Qonaqları salamlayan ombudsman Səbinə Əliyeva bu cür yığıncağın Müstəqilliyin Bərpası Günündə Bakıda keçirilməsindən məmnunluğunu bildirib. O, bu konfransın Azərbaycanın Ombudsman təsisatının yaradılmasının 20-ci ildönümünə təsadüf etdiyini diqqətə çatdırıb.

Səbinə Əliyeva oktyabrın 19-20-də Ombudsmanların və Milli insan hüquqları təsisatlarının "Biznes və insan hüquqları sahəsində ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Bakı Beynəlxalq Konfransının keçiriləcəyini qeyd edib. Ombudsman vurğulayıb ki, bu, Azərbaycanın Şərqlə Qərb arasında mühüm körpü rolu oynadığını bir daha göstərir.

Digər çıxış edənlər təşkilata üzv ölkələrdə insan haqlarının qorunması istiqamətində aparılan işlərlə bağlı fikir mübadiləsi aparıb, qadınların siyasi və beynəlxalq məsələlərdə iştirakının mühüm məsələ olduğunu bildiriblər. Həmçinin İƏT OA-nın islam ölkələrində insan hüquqları üzrə problemlərin həllində önəmi vurğulanıb.

Sonda birgə foto çəkdirilib.

## Milli Məclisin iclasında

# Dövlət müstəqilliyi hər bir vətəndaş üçün ən böyük sərvətdir

Əvvəli 1-ci səh.

Milli Məclisin deputatları həmin tədbirlərdə iştirak etmişlər.

Biz erməni terroru nəticəsində şəhid olmuş insanlarımıza Allahdan rəhmət, onların yaxınlarına səbir diləyirik", - deyə Sahibə Qafarova bildirib.

Milli Məclisin Sədri daha sonra qeyd edib ki, oktyabrın 18-i Azərbaycan tarixinin yeni bir dövrünün başlanğıcını qoymuş Müstəqilliyin Bərpası Günüdür: "Ötən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması, təqribən 70 il sonra, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin bərpa edilməsi Azərbaycan xalqının dövlətçilik potensialının yeni şəraitdə real şəkil alması və qəlbində yaşatdığı müstəqillik arzusunun gerçəkləşməsi idi. Lakin xalqımız əsrin əvvəllərində qurduğu dövlətini cəmi 23 ay yaşada bilmişdisə, əsrin sonlarına yaxın müstəqil dövlətini Ulu Öndər, dünyamiqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin qüdrətli zəkası və müdrikliyi, yenilməz iradəsi və qətiyyəti sayəsində qoruyub saxlaya bilmişdir.

Sahibə Qafarova bildirib ki, ötən əsrin 90-cı illərinin əvvəllərini hamımız yaxşı xatırlayırıq, iqtidara gəlmiş birillik hakimiyyət ölkəni vətəndaş müharibəsi və dağılmaq həddinə gətirib çıxarmışdı: "Dövlətin idarə edilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində kobud səhvlərə yol verilmişdi. Ordu adı ilə yaradılan silahlı dəstələrin özbaşınalığı siyasi, iqtisadi, hərbi böhranı daha da dərinləşdirirdi. Bütün bunlar Azərbaycan ərazilərinin işğalına şərait yaradır, yüz minlərlə soydaşımızın yurd-yuvasından didərgin düşməsinə səbəb olurdu. Biz bu həqiqəti dönə-dönə təkrarlayırıq ki, əgər o dövrdə ölkədə baş verən hadisələrə Heydər Əliyevin şəxsi müdaxiləsi olmasaydı, bu gün müstəqil Azərbaycan dövlətinin varlığından danışmaq mümkün olmazdı".

Milli Məclis Sədrinin sözlərinə görə, biz bunu da həmişə xüsusi qeyd edirik ki, Ulu Öndərin böyük siyasətə qayıdışı 1993-cü il iyunun 15-də onun Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ilə başlanmışdır. Xilaskarlıq missiyasını həyata keçirmək yolunda onun ilk addımları məhz bu dövrdə və bu binada başlanmışdır. Heydər Əliyevin 4 ay ərzində Azərbaycan parlamentinin Sədri vəzifəsində çalışması bütün digər məsələlərlə yanaşı, ölkəmizdə qanunvericilik hakimiyyəti orqanının nüfuzunu yüksək səviyyəyə qaldırmış və onun peşəkar fəaliyyət istiqamətlərini müəyyənləşdirməyə imkan vermişdir.

Sahibə Qafarova qeyd edib ki, Ulu Öndərin başladığı bütün möhtəşəm işlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində real təcəssümünü tapmışdır: "Cəmiyyət və dövlət həyatının bütün sahələrində əldə edilmiş uğurlar dünyanın diqqətini Azərbaycana cəlb etmişdir: Yaradılmış böyük siyasi, iqtisadi, hərbi potensial Ümummilli Liderimizin ən mühüm vəsiyyətini şərəflə yerinə yetirməyə imkan vermişdir - dövlətimizin taleyüklü problemi həll edilmiş, torpaqlarımızın 30 illik işğalına son qoyulmuş, ərazi bütövlüyümüz bərpa olunmuş, Azərbaycana qarşı ərazi iddiasına düşənlərin layiqli cavabı verilmişdir.

Bu gün Azərbaycan Respublikası gələcəyə inamla baxan, Cənubi Qafqaz bölgəsində güc mərkəzi və söz sahibi olan qüdrətli dövlətdir. İnamla söyləmək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti Azərbaycan dövlətini və xalqını indiyə qədər olduğu kimi, qarşıdakı illərdə də qələbədən-qələbəyə, uğurdan-uğura aparacaqdır".

Milli Məclisin Sədri çıxışını Prezident İlham Əliyevin sözləri ilə bitirib: "Azərbaycanın dövlət müstəqilliyi respublikamızın hər bir vətəndaşı üçün ən böyük sərvətdir.

... Bu gün müstəqil və azad xalq kimi yaşamağımız ən böyük qürurverici amildir.

... Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir".






Müstəqilliyin Bərpası Günü münasibəti ilə deputatları təbrik edən Sahibə Qafarova təklif edib ki, Milli Məclis adından Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktubları ünvanlansın: "Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifahının yüksəlməsi naminə dəyərli fəaliyyətlərində onlara yeni uğurlar arzulayaq".

Deputatlar təklifi alqışlarla qarşılayıblar.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova, deputatlar Elnur Allahverdiyev, Naqif Həmzəyev, Rauf Əliyev, Vahid Əhmədov, Sahıb Alıyev, Musa Qasımlı, Tahir Kərimli, Aqil Abbas Müstəqilliyin Bərpası Günü ilə bağlı fikirlərini səsləndiriblər. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə söhbət açan deputatlar bildiriblər ki, Ermənistan 30 ilə yaxın torpaqlarımızda törətdiyi cinayətlərə görə cavab verməli, vurduğu maddi və mənəvi ziyanı ödəməlidir. Deputatlar bir sıra digər aktual məsələlərə də toxunublar, qeyd və təkliflərini bildiriblər.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan nümayəndə heyətinin bu günlərdə Avropa Şurası Parlament Assambleyasının payız sessiyasında iştirakı barədə məlumat verib. O, sessiyada Ermənistan tərəfindən ölkəmizə qarşı yönəlmiş təxribatlar haqqında danışıb və onların bütün cəhdlərinin boşa çıxdığını bildirib. Səməd Seyidov Azərbaycan nümayəndə heyəti üzvlərinin ölkəmizin milli maraqlarını yüksək səviyyədə müdafiə etdiklərini söyləyib. Komitə sədri Azərbaycan Prezidentinin apardığı uğurlu siyasəti davam etdirməyin vacibliyini vurğulayıb.

İclasda çıxış edən Milli Məclisin Sədr müavini Fəzail İbrahimli dövlət rəsmilərinin rəsmi dövlət qəzeti, Milli Məclisin orqanı olan "Azərbaycan" qəzetində dərc edilən məqalələri ilə bağlı son günlər bəzi saytlarda səsləndirilən qərəzli, böhtan fikirlərə sərt münasibətini bildirib. O, jurnalist fəaliyyəti adı ilə bu cür bədnam işlərlə məşğul olan KİV-ə müvafiq strukturların qanun çərçivəsində cavab verməsini tələb edib.

Fəzail İbrahimli vurğulayıb ki, cənab Prezidenin 19 illik fəaliyyəti ilə bağlı araşdırmalar və məqalələr yazan dəyərli dövlət adamlarının hədəfə götürülməsi qəbuledilməzdir: "Azərbaycanın 19 ildəki nailiyyətləri, Ermənistan üzərində qələbəmizin əsas mahiyyətini ifadə edən şəxslər hədəfə götürülür".

Sonra gündəlikdəki məsələlərə baxılıb. Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasda 21 məsələ müzakirə olunacaq. Gündəliyin ilk iki məsələsi birinci oxunuşda olan qanun layihələridir.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi (birinci oxunuş) haqqında məlumat verib. Diqqətə çatdırıb ki, ölkə Prezidenti tərəfindən təqdim olunan Konstitusiya Qanununun hazırlanmasını iki əsas amil zəruri edir. Birincisi, bir sıra qanunlarda, o cümlədən bu Konstitusiya qanununda da insan hüquqları sahəsində ombudsmana verilmiş bir sıra səlahiyyətlərin yeni icra mexanizmlərini müəyyən etmək və təkmilləşdirməkdir. İkincisi, bəzi beynəlxalq hüquqi sənədlərdən və beynəlxalq təşkilatların tövsiyələrindən irəli gələrək Konstitusiya Qanununu təkmilləşdirmək, həmin qanunları implementasiya etməkdir. Bununla əlaqədar, Konstitusiya Qanununa "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"nın, "Uşaq hüquqları haqqında Konvensiya"nın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının təşviqi və monitorinqi üzrə müstəqil mexanizm funksiyalarının tətbiqini nəzərdə tutan müddəalar əlavə edilir.

Bununla yanaşı, ombudsmanın seçilməsi ilə bağlı 4.3-cü maddə yeni redaksiyada verilir. Maddəyə əsasən, müvəkkilin səlahiyyətlərinin bitməsinə 30 gün qalmış Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisinə yeni müvəkkilin seçilməsi üçün üç şəxsin namizədliyini təqdim edir. Azərbaycan Respublikasının Milli Məclisi 15 gün müddətində müvəkkilin seçilməsi ilə bağlı müvafiq qərar qəbul edir.

Həmçinin milli preventiv qrup haqqında mövcud olan maddə təkmilləşdirilərək yeni redaksiyada təqdim olunur.

Qanun layihəsində eyni zamanda Ombudsman Aparatında monitorinq qruplarının yaradılması və onların hüquqlarının müəyyən edilməsi nəzərdə tutulub, həmçinin ombudsmanın, monitorinq qrupunun, milli preventiv qrupun fəaliyyətinə maneə törədilməsinə görə məsuliyyət müəyyən edilir.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc sənəd barədə komitənin rəyini səsləndirib, təklif olunan dəyişikliklərin məqsədəmüvafiq olduğunu deyib.

Məsələ ətrafında gedən müzakirələrdə komitə sədri Bəxtiyar Əliyev, deputatlar Etibar Əliyev, Fəzail Ağamalı, Sahib Alıyev, Tamam Cəfərova, Qüdrət Həsənquliyev, Erkin Qədirli fikirlərini açıqlayıblar. Müzakirələrin sonunda Konstitusiya qanununun layihəsi birinci oxunuşda qəbul edilib.

Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi də birinci oxunuşda qəbul edilib.

Parlamentin spikeri bildirib ki, növbəti 17 məsələ ikinci oxunuşda olan qanun layihələridir. 3-cü və 4-cü məsələlər ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə bağlıdırlar.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihələrini təqdim edərək bildirib ki, hər iki sənəd "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair" Avropa Şurası Konvensiyasının müvafiq maddələrinin icrası məqsədilə hazırlanıb.

Cinayət Məcəlləsində nəzərdə tutulan dəyişikliklərdə qanunla müəyyən edilmiş qaydada tanınmış xarici dövlətlərin məhkəmə hökmlərindən irəli gələn məhkumluğun cinayətlərin residivi zamanı və cəza təyin edilərkən nəzərə alınması qaydası müəyyən edilir. Eyni zamanda əvvəllər barəsində cinayət-hüquqi tədbir tətbiq olunmuş hüquqi şəxsə yeni cinayətə görə cinayət-hüquqi tədbir təyin olunmasının mexanizmlərinin məcəlləyə əlavə edilməsi təklif olunur.

Cinayət-Prosessual Məcəlləsinin müvafiq maddələrinə isə xarici dövlətlərin məhkəmə hökmlərinin tanınması qaydasının təkmilləşdirilməsi ilə əlaqədar dəyişikliklər nəzərdə tutulur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycan Respublikasının 1995-ci il 10 yanvar tarixli 947 nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Layihəyə əsasən, hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin törətdikləri hərbi xidmət əleyhinə olan inzibati xəta nəticəsində dövlətə vurduqları ziyana görə ödənilməmiş ziyanın bütün miqdarı həcmində maddi məsuliyyətə cəlb edilməsi nəzərdə tutulur, cinayət və ya inzibati məsuliyyətə səbəb olmayan digər hərəkətlər nəticəsində vurulan ziyana görə maddi məsuliyyətin hədləri isə müddətli hərbi xidmətdə olan hərbi qulluqçular və kursantlar üçün pul təminatının iki aylıq məbləğindən üç aylıq məbləğinə, qalan hərbi qulluqçular üçün isə pul təminatının aylıq məbləğindən iki aylıq məbləğinə qaldırılır.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Qeyd olunub ki, məcəllənin müvafiq maddələrində uyğunlaşdırma və dəqiqləşdirmə xarakterli, habelə antiinhisar fəaliyyətini həyata keçirən orqanın fəaliyyətinin daha səmərəli təşkil olunması ilə bağlı düzəlişlər nəzərdə tutulub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov isə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. Layihəyə əsasən, qanunda kommersiya hüquqi şəxslərin təsisçiləri və onların nizamnamə kapitalındakı payları barədə məlumatların verildiyi subyektlərin dairəsinə antiinhisar fəaliyyətini həyata keçirən orqanın əlavə edilməsi təklif edilir.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri ilə bağlı məlumat verib. Torpaq Məcəlləsində edilən dəyişikliklərdə torpaq sahələrinin döngə nöqtələrinin koordinatlarının müəyyən edilməsi və torpaq sahəsinin planı və ölçüsünün hazırlanması ilə bağlı xidmətlərə görə xidmət haqlarının tutulmasının hüquqi əsasları göstərilir.

"Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" qanuna təklif olunan dəyişikliklərdə dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu işləri, texniki kadastr və yerquruluşu sənədlərinin tərtibi və bu işlərə dair məlumatların və sənədlərin verilməsinə görə xidmət haqlarının tutulmasının hüquqi əsasları müəyyən edilir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili isə "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (ikinci oxunuş) məlumat verib. Bildirib ki, təklif olunan dəyişiklikdə müvafiq orqan tərəfindən daşınmaz əmlak hüquqlarının qeydiyyatı zamanı beş xidmət növünün siyahısının qanunda öz əksini tapması və buna görə haqqın tutulması ehtiva edilir.

Hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Tahir Mirkişili "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini də (ikinci oxunuş) təqdim edib. Bildirib ki, dəyişiklik qrantların alınmasında şəffaflığın təmin edilməsi, bu sahədə müasir tələblərə cavab verən sistemin formalaşdırılması, qrantlar haqqında zəruri məlumatları əhatə edən vahid informasiya sisteminin mövcudluğu, nəzərdə tutulan reyestrin eyni forma, metod və prinsiplər əsasında aparılması baxımından zəruri hesab edilir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda daha sonra Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) müzakirə olunub. Bildirilib ki, layihə aksizli və məcburi nişanlama ilə nişanlanmalı malların dövriyyəsinin tənzimlənməsi, bu malların idxalı, istehsalı, satışı və dövriyyəsinə vergi nəzarətinin təmin edilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini (ikinci oxunuş) də diqqətə çatdırıb. Bildirib ki, ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim olunan qanun layihəsinin hazırlanmasında beynəlxalq təcrübədən geniş istifadə olunub. Burada məqsəd əlverişli ekosistemin yaradılması, investisiya və innovasiyaların stimullaşdırılmasından, bazarlara çıxışa dəstəkdən, ÜDM-də, məşğulluqda, qeyri-neft sektorunda KOB-ların payının daha da artırılmasından ibarətdir. Qanunun əsas istiqamətləri KOB-lara yerində xidmət, optimal vergi siyasəti, prosedurların daha da sadələşdirilməsi, bilik və bacarıqların artırılması, maliyyə resurslarından çıxışın asanlaşdırılmasıdır. Layihəyə əsasən, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə daimi fəaliyyət göstərən koordinasiya qrupunun yaradılması nəzərdə tutulub. Bununla yanaşı, sahibkarlıq subyektləri haqqında müvafiq məlumatların daxil edildiyi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrinin yaradılması təklif olunur.

Tahir Mirkişili "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsindən (ikinci oxunuş) bəhs edərək deyib ki, bu qanunun 2-ci maddəsinin 1-ci hissəsində "Azərbaycan Respublikasının Qanunu" sözləri "və "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" Azərbaycan Respublikasının Qanunları" sözləri ilə əvəz olunur.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Tibbi sığorta haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirib ki, sənəd Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 3 dekabr 2021-ci il tarixli qanuna uyğun olaraq hazırlanıb. Həmin qanuna əsasən, Vergi Məcəlləsində qaimə-fakturanın, əmtəə-nəqliyyat qaiməsinin elektron qaydada tərtib edilməsi, vergi borcu ilə bağlı vergi ödəyicisinin siyahıya alınmış dəyəri 5000 manatdan artıq olmayan daşınar əmlakların ticarət şəbəkələrində satılması barədə məhkəmə qərarlarının icrasının vergi orqanları tərəfindən həyata keçirilməsi ilə bağlı düzəlişlər nəzərdə tutulub."Sosial sığorta haqqında" qanuna "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" ifadəsinin "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" adlandırılması ilə əlaqədar dəyişiklik təklif olunur."Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanunda yalnız fiziki şəxslərin mülkiyyətində olan bina, su və hava nəqliyyatı vasitələrinə görə əmlak vergisinin bələdiyyə vergilərində saxlanması və yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin isə dövlət vergilərinə aid edilməsi ilə əlaqədar dəyişikliklər edilir."Tibbi sığorta haqqında" qanunda icbari tibbi sığorta haqlarının vergi orqanları tərəfindən toplanması ilə əlaqədar icbari tibbi sığorta haqqı ödəyicilərinin Vergi Məcəlləsində müəyyən olunan vəzifələrinin təsbit olunması təklif olunur."Daşınar əmlakın yüklülüyü haqqında" qanunda isə Vergi Məcəlləsində daşınar əmlakın yüklülüyü ilə bağlı mövcud olan halların təsbit edilməsi ilə bağlı müvafiq dəyişiklik aparılıb.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sənəd barədə bu komitələrin rəylərini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda "Büdcə sistemi haqqında", "İşsizlikdən sığorta haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi də (ikinci oxunuş) müzakirə olunub. Diqqətə çatdırılıb ki, qanun layihəsi büdcədənkənar fondların büdcə layihəsinin müəyyən olunması və onun icrası ilə bağlı hesabatlılığın formasını özündə müəyyən edir. Layihə "Büdcə sistemi haqqında" qanunda dəyişiklik edilməsi barədə" 2021-ci il 24 dekabr tarixli qanunun icrası məqsədilə hazırlanıb.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev sənəd barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Müzakirələr zamanı "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri də ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. Qanuna təklif olunan dəyişikliklər dövlət idarəetməsinin təkmilləşdirilməsi məqsədilə yeni yaradılan dövlət orqanlarında vəzifə tutan dövlət qulluqçularının inzibati vəzifələrinin müvafiq təsnifata aidiyyətinin müəyyənləşdirilməsi məqsədi daşıyır.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Daha sonra iclasda üçüncü oxunuşda olan iki məsələyə baxılıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Bildirib ki, qanun layihəsinin komitədə müzakirəsi zamanı onun mütərəqqi formada hazırlandığı və dəyişikliklərin məqsədəmüvafiq olduğu qeyd edilib. Sənəddə İcbari Sığorta Bürosunun elektron informasiya sistemi ilə müvafiq dövlət orqanlarının elektron informasiya sistemlərinin inteqrasiyası, bütün icbari sığorta müqavilələrinin bağlanılmasını və sığorta hadisələrini təsdiq edən sənədlərin elektron formada təmin edilməsi nəzərdə tutulub.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov "Yol hərəkəti haqqında", "Notariat haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Bildirib ki, bu qanun layihəsi də İcbari Sığorta Bürosunun elektron informasiya sistemi ilə müvafiq dövlət orqanlarının elektron informasiya sistemlərinin inteqrasiyasını nəzərdə tutur.

Deputat Əli Məsimli İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu məsələyə dair rəyinin müsbət olduğunu açıqladıqdan sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ





# Şərqi Zəngəzur möhtəşəm tarixi hadisəyə hazırlaşır

Əvvəli 1-ci səh.

Qarşımıza çıxan hər kəsin könlündə, gözündə də sanki bir günəş doğub üzünü işıqlandırmışdı.

Elə küçədəcə qarşımıza çıxan ilk sakinlə söhbətləşməyi qərara alırıq.

1993-cü ilin iyul ayında Zəngilanda anadan olan və elə həmin ilin oktyabr ayında anasının qucağında doğma yurdunu tərk edən Aytəkin Abdullayeva illər sonra Ağalıya qayıdışının heç bir sevinc hissi ilə müqayisəyə gəlməyəcəyini deyir: "Zəngilanı körpə olarkən tərk etsəm də, həmişə yuxumda görürdüm. Anlayırdım ki, yuxuda gördüyüm yerlər babamın mənə danışdığı vətənimdir. Orta məktəbi bitirib BDU-nun Coğrafiya fakültəsinə qəbul olundum. Zəngilanın coğrafiyasını, tarixini daha yaxşı öyrəndim. Yaşa dolduqca Zəngilana olan sevgim də böyüyürdü...

Sentyabrın 7-si... Doğma ata yurdumuza qayıdışımızın ilk günü oldu. Torpağının hər qarışının qanla yoğrulduğu Vətənimizə dönüşün ilk gününün həyəcanını yəqin illər sonra da eynilə hiss edəcəm. Vətən onsuz da doğma olur. Qarabağ, eləcə də Zəngilan bizimçün, bütün azərbaycanlılar üçün həmişə ən həssas, ən müqəddəs yer olub.

Bu gün ailəmlə, atam, anam, bacı-qardaşımla birlikdə doğma Zəngilanımızda məskunlaşmışıq. Zəngilan babamın söhbətlərinin əsas mövzusu idi. Ömrünün son gününə qədər hər dəfə Zəngilandan danışanda gözləri dolardı, qəhər onu boğardı. Həmişə Bəsitçay qoruğunun çinarlıqlarından, oranın əfsanəvi gözəlliyindən danışardı".

Hazırda Prezidentin Zəngilan rayonundakı xüsusi nümayəndəliyində çalışan Aytəkin dövlətin onlara göstərdiyi qayğıdan çox razı olduqlarını, doğma yurdlarına qayıdan bütün sakinlər üçün hərtərəfli şəraitin yaradıldığını söyləyir. Sözlərinə görə, kənddə işsiz adam çox azdır. Amma işləmək istəyən üçün iş yeri kifayət qədərdir. Bir müddət sonra Zəngilan hava limanı fəaliyyətə başlayanda kənddə yenidən xeyli sayda insan işlə təmin olunacaq. Gənc mütəxəssis hesab edir ki, tezliklə işğaldan azad olunan bütün torpaqlarımız daha da çiçəklənəcək, inkişaf edəcək.

## Hər şey arzu etdiyimizdən də çox yaxşıdır

Ağalını 19 yaşında tərk etmək məcburiyyətində qalan kənd sakini Səbinə Əliyeva isə hazırda həyatının ən xoş anlarını yaşayır. Həmsöhbətimiz ömrünün geridə qalan illərini vərəqlədikcə gözləri yaşla dolur: "Çox şükür ki, bu günü gördük. Kəndimizi o qanlı-qırğınlı illərdə tərk edəndə cəmi 19 yaşım var idi. Arazı keçəndə soyuqdan damarlarımda qanım donmuşdu. Çox ümidsiz idik. Başımıza gəlməyən çətinliklər qalmadı. Həyat, yaşamaq gözəldir, odur ki, biz də dözdük...

"Günəşli" sanatoriyasında məskunlaşmışdıq. Orada iki övladımız - Həcər və Anar dünyaya gəldi. Çox şükür, indi Uğur adında bir nəvəm də var. Ağalıya nənə kimi qayıtmışam. 4 otaqlı mənzillə təmin edilmişik. Hər cür rahatlığımız, əla şəraitimiz var. Yoldaşım Qədir bağban işləyir. Oğlum bərbərdir. Dövlətimiz ona fərdi sahibkar kimi hər cür şərait yaradıb.

Bakıda yaşayanda nə qədər qazanırdıqsa, hamısı xərclənib gedirdi. Yaman gün üçün arxaya bir manat belə qoya bilmirdik. Amma indi hər şey arzu etdiyimizdən də çox yaxşıdır. Hərdən öz həyatıma baxıb, bu gözəlliyin içində olduğuma özüm də inana bilmirəm. Elə bilirəm yaşadıqlarımız bir yuxudur. Evimiz, işimiz, rahatlığımız var. Ən başlıcası isə, bütün bunlar bizim doğulub böyüdüyümüz doğma yurdumuzda, illərlə həsrətində olduğumuz Ağalıdadır.

Bizə bu xoşbəxtliyi yaşadan dövlətimiz var olsun! Prezidentimiz İlham Əliyevə nə qədər alqış etsək, azdır".

## Evimiz də var, işimiz-gücümüz də...

Sakinlərlə bir qədər söhbətləşdikdən sonra Ağalıda fəaliyyət göstərən "Gill Med" MMC-yə - steril və qeyri-steril tibbi vasitələrin istehsalı müəssisəsinə baş çəkirik.









Burada tibbi maskalar, tibbi geyimlər, əməliyyat üçün önlüklər, tibbi kombinezonlar tikilərək müxtəlif ünvanlara göndərilir.

Müəssisənin rəhbəri Habil Abdullayev qeyd edir ki, burada 12 qadın çalışır. Yaxın günlərdə sifarişdən asılı olaraq həm istehsal sahəsinin genişlənməsi, həm də işçilərin sayının artması gözlənilir.

Hazırda daha çox tələbat tibbi maskalara, önlüklərə və tibb şalvarlarınadır. Müəssisədə hər gün 5000-dən çox maska, 100-dən artıq önlük, bir o qədər də şalvar istehsal olunur.

Tikiş ustalarından Gülşən Ağalarova, Zeynəb Hüseynova, Kəmalə Orucova, Qiyafət Həsənova və Minayə Əhmədova ilə söhbət edirik.











Ağalının işgüzar xanımları doğma yurdlarında yaradılmış şəraitdən, işlədikləri zəhmətin dəyərləndirilməsindən razılıq edirlər.

Kəmalə Orucova deyir ki, 44 günlük müharibənin şanlı Zəfərindən sonra doğma kəndlərinin tez bir zamanda inşası onlar üçün ən böyük hədiyyədir: "30 ilə yaxın köçkünlük dövründə o qədər tənəli sözlər eşitdik ki... Şükür ki, indi həm ev-eşiyə sahib olmuşuq, həm də halal zəhmətlə qazandığımız çörəyimizi yeyirik. Bizə bu şəraiti yaradan dövlətimizə, Prezidentimizə, hər zaman bizə dəstək olan Mehriban xanım Əliyevaya kollektivimiz adından minnətdarlığımı bildirirəm".

## "Mehriban xanım Əliyeva bişirdiyim çörəkdən daddı və bəyəndi"

Müəssisədə çalışanlara işlərində uğurlar arzulayıb, Ağalıda qaynayan həyata qarışırıq. Kənddə "ASAN xidmət" mərkəzi, bank xidməti, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi, iki market, poçt məntəqəsi, kafe, çayxana, ət kəsimi məntəqəsi və digər xidmət sahələri fəaliyyət göstərir.

Nahar vaxtı yaxınlaşdığı üçün insanlar daha çox marketlərə daxil olub, təndir çörəyi alırlar. Biz də Ağalıda bişən təndir çörəyindən dadmaq üçün içəri daxil oluruq. İlk diqqətimizi çəkən isə vitrinin üzərindəki çərçivəyə salınmış şəkil olur. Bu foto Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə çörəkbişirən xanımın birgə şəklidir. Marağımıza səbəb olduğu üçün təndirə çörək yapmaqda olan Təranə Quliyeva ilə qısa söhbət edirik. Bəlli olur ki, Prezident İlham Əliyevlə birinci xanım Mehriban Əliyeva Ağalıya səfər edərkən Birinci vitse-prezident marketə daxil olub və Təranə xanımın bişirdiyi təndir çörəyindən dadıb. Təndirçi xanım həmin anları belə xatırlayır: "Vallah, heç özüm də bilmirəm necə oldu. Heç yatsam, yuxuma da girməzdi ki, nə vaxtsa, işğaldan azad edilən torpaqlarımızda təndir çörəyi bişirəcəm və ölkənin birinci xanımı gəlib mənim çörəyimdən dadacaq. Çox sevincli idim. Mehriban xanım bişirdiyim təndir çörəyini təriflədi. Sonra məni qucaqladı və birgə şəkil çəkdirdik. Bu, bəlkə də həyatımda keçirdiyim ən xoşbəxt günlərdən birincisidir".

## "Təmiz havamız, evimizin içində iş yerimiz var. Bundan artıq bizə nə lazımdır ki?"

Evinə nahar fasiləsinə gələn kənd sakini Elman Əliyev Ağalıya ilk köçənlərdəndir. Söhbətimiz zamanı bəlli olur ki, Elman kişi hazırda Minatəmizləmə Agentliyində (ANAMA) sürücü işləyir. Aldığı maaş artıqlaması ilə bəs edir: "Allaha and olsun ki, indi əsl həyat yaşamağa başlamışıq. İllərlə məcburi köçkünlük həyatı yaşadıq. Sağ olsun dövlətimiz, şəraitimiz pis deyildi. Amma qazandığımızın hamısı elə xərclənirdi ki, kənara pul qoya bilmirdik. Üstəlik, Bakının tıxacı, metronun basabası...

Şükürlər olsun ki, indi öz doğma yurdumuz, təmiz havamız, evimizin içində iş yerimiz var. Bundan artıq nə lazımdır ki?!

Bakıda olarkən ayda bir dəfə balıq yeyərdik. Amma indi çaylardan qızıl balıq tutub yeyirik. Bundan gözəl heç nə ola bilməz. Həyat yoldaşım tibb məntəqəsində çalışır. İkimizin maaşımız bizə artıqlaması ilə yetir. Kim çalışmaq istəyirsə, iş var. Hər kəs işləyir və rahat dolanır.

Var olsun Prezidentimiz! Ömürboyu İlham Əliyevə alqış edəcəm. Torpaqlarımızı düşməndən qaytardı və bizi az bir zamanda kəndimizə köçürdü. Özü də ən müasir, modern kənd qurdu bizim üçün. İşıqlarımız sönmür, daim isti-soyuq suyumuz var. Hər cür şərait yaradılıb, bundan artıq dövlət neyləməlidir ki?

Sakinlərlə söhbətimizdən belə qənaətə gəldik ki, Ağalı yalnız ölkəmizdə birinci "ağıllı kənd" olmağı ilə fərqlənmir, həm də bu, vətəndaşlarımızın xəyallarının gerçəkləşdiyi ilk kənddir. İnsanlar bu kənddə yuxuda belə görmədiklərini gerçək həyatlarında yaşayırlar. 65 evdə 325 sakinin məskunlaşdığı kənddə heç bir məşğulluq problemi yoxdur. İşləmək istəyənlər üçün kifayət qədər iş yeri var.

Bir sözlə, Ağalıda həyat qaynayır, doğma yurd-yuvasına qayıdan sakinlər həm müəssisələrdə, ictimai-iaşə obyektlərində çalışır, həm də həyətyanı sahələrdə təsərrüfatla məşğul olurlar. Bütün bunlar onu deməyə əsas verir ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyat daha gözəl olacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Ali Baş Komandan məni 20 yaşımda Vətən Müharibəsi Qəhrəmanı etdi




Bakı Şəhər İcra Hakimiyyətinin nəşr etdiyi "ZƏFƏR MEMUARLARI. Döyüşçülər sərkərdə və müharibə haqqında" kitabından istifadə olunub

**YAQUBOV VÜSAL ELŞƏN OĞLU**
**əsgər**



*2001-ci il martın 2-də Bakının Əhmədli qəsəbəsində anadan olub. Əslən Qubadlı rayonunun Yusifbəyli kəndindəndir. 2007-2018-ci illərdə Sumqayıt şəhərindəki 37 nömrəli tam orta məktəbdə təhsil alıb. Göyçay Rayon İdarəetmə və Texnologiya Kollecində nəqliyyat vasitələrinin təmiri və servisi ixtisasında 6 ay oxuduqdan sonra təhsilini dondurараq 1 aprel 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə yollanıb.*

*Hərbi xidmətə "N" saylı hərbi hissədə başlayıb, daha sonra Xüsusi Təyinatlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmətini davam etdirib. Hərbi xidmətdən tərxis müddətinə 4 gün qalmış İkinci Qarabağ müharibəsi başlayıb və o, Xüsusi Təyinatlı Qüvvələrin əsgəri kimi Cəbrayılın, Füzulinin, Xocavəndin, Kəlbəcərin, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.*

*Vətən Müharibəsi Qəhrəmanıdır.*

*"Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.*

***…Xocalının Sığnaq kəndində qəfildən düşmənlə qarşılaşdım. O, dərhal gözünü pulemyotun nişangahına qoydu ki, məni vursun. Həmin anda düşündüm ki, artıq şəhidlik məqamım yaxınlaşıb, daha döyüş yolum burada sonlanır.***

***Çiyin-çiyinə vuruşduğum, yaralanan, şəhid olan döyüş yoldaşlarım bir-bir gözümün önünə gəldi. Hamımız bir nəfər kimi and içmişdik: birimiz ölsək də, digərlərimiz düşməndən qisas almaq üçün irəli şığıyacaqdıq.***



Biz xalqımıza, Ali Baş Komandanımıza söz vermişdik ki, Qarabağı azadlığına qovuşdurmayana qədər çıxdığımız bu haqq yolunda öldü var, döndü yoxdur. Sanki elə ürəyimizdə olan bu Vətən eşqindən, Tanrının bu haqq işində yanımızda olmasından, baş sərkərdəmizə verdiyimiz döyüşçü andından güc-qüvvət alaraq düşməndən bir-iki saniyə cəld davrandım və pulemyotla düz onun alnının ortasından vurdum. Bununla da həm özümün, həm də döyüş yoldaşlarımın həyatını təhlükədən qurtardım. Eyni zamanda bir döyüşçü kimi Ali Baş Komandan İlham Əliyevin etimadını doğrultduğuma görə arzularımın ən yüksək zirvəsinə - gənc yaşımda "Vətən Müharibəsi Qəhrəmanı" adını qazanmaq şərəfinə nail oldum.

## Vətən həsrəti ilə böyüdüm

Məcburi köçkün ailəsində dünyaya göz açmışam. Anam Füzuli, atam Qubadlı rayonundandır. Valideynlərimin bu illər ərzində doğma ocaqlarından ötrü necə həsrət çəkdiklərinin şahidi olmuşam. İşğal zamanı atam Qubadlını ən son tərk edənlərdən olmuşdu və danışırdı ki, qohumları evdən çıxanda ermənilər onları gözünün qabağında öldürmüşdülər. Atam da öldürülməkdən, düşmənə əsir düşməkdən birtəhər canını qurtararaq təkbaşına Cəbrayıl rayonuna qədər gəlmişdi...

Bütün o dəhşətli anları daim gözümün önündə canlandırır, ürəyimdə düşməndən qisas almaq hissi coşurdu...

Ailəmizə məxsus bütün fotoşəkillər rayonda qaldığına görə Qubadlını, Füzulini mənə sözlə təsvir edirdilər. Buna görə də atamın və anamın yurdunda heç vaxt olmasam da, oraları hafizəmdə canlandırır, hər yolunu, cığırını qarış-qarış tanıyırdım...

Bütün bu yaşananlar ta uşaq yaşlarımdan məndə döyüşçü, hərbçi olmaq arzusu oyadırdı. Məktəb vaxtı bizdə "Şahin" hərbi oyunları keçirilirdi, mən də məktəbimizdə şagirdlər arasında taqım komandiri kimi seçilmişdim və o oyunlarda həvəslə iştirak edirdim. Dərslərlə paralel idmanın cüdo növü ilə də məşğul olurdum. Yəni hələ erkən yaşlarımdam fiziki hazırlığımı artırır, gələcəkdə yaxşı hərbçi olmaq üçün bacarıqlarımı inkişaf etdirirdim.

2016-cı ilin Aprel döyüşləri zamanı məktəbli idim, amma çox istəyirdim ki, mən də o an döyüşçülərimizlə çiyin-çiyinə vuruşum. O zaman Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi altında şanlı ordumuz bu şərəfli missiyanı müvəffəqiyyətlə yerinə yetirdi. Cəmi bir neçə gün ərzində düşməni ərazilərimizdən qovaraq, Azərbaycan xalqına böyük zəfərin başlanğıc müjdəsini verdilər. Ali Baş Komandan Aprel zəfəri ilə işğalda qalan digər Vətən torpaqlarımızın da tezliklə azad olunacağının mesajını verdi.



## Düşmənin bir tabor döyüşçüsünü pusquya salıb məhv etdik

2019-cu ildə kollecdə oxuyan zaman könüllü olaraq təhsilimi dondurub hərbi xidmətə yollandım. Bir aydan sonra Xüsusi Təyinatlı Qüvvələrin seçimi ilə Cəlilabadda yerləşən "N" saylı hərbi hissəyə yollandım və əsgəri xidmətimi sonuna kimi orada davam etdirdim. Xüsusi Təyinatlı Qüvvələrdə bizə çox ciddi təlimlər keçirdilər. İkinci Qarabağ müharibəsindən 8 ay əvvəl isə daha çox dağ təlimlərində olmuşduq. Sanki həqiqi döyüşün içərisində, əsl müharibədə idik...

Tərxis müddətimə cəmi 4 gün qalmışdı, evə getməyə hazırlaşırdım. Amma qəfildən Vətən müharibəsi başladı və Ali Baş Komandanın "İrəli!" əmri ilə Xüsusi Təyinatlı Qüvvələrin döyüş bölməsinin əsgəri kimi döyüşə yollandım.

Əvvəlcə Goranboy rayonunun Buzluq kəndinə yola düşdük, istiqamətimiz Kəlbəcərə doğru oldu. Bu istiqamətə yollanıb 4 gün Kəlbəcər dağlarında yerləşdik. Sonra isə yuxarı komandanlıq tərəfindən taktiki dəyişiklik oldu və biz təcili surətdə oradan çıxaraq Beyləqan rayonuna qayıtdıq.

Daha sonra Füzuli rayonunun Horadiz qəsəbəsinin postlarından başlayaraq rayonun bir çox kəndini azad etdik. Bu ərazidə minalanmış sahələr, düşmən postları çox idi. Bütün çətinliklərə baxmayaraq irəliləyirdik. Adsız yüksəkliklərin birində yarıqazılmış səngərin içində dincəlmək məqsədilə dayandıq. Həmin vaxt gizirimiz dedi ki, tank səsi gəlir, qumbaraatanlar mövqeyə keçsin. Bir az sonra qumbaraatanlarımız yaxınlaşan düşmən "Kamaz"ını vurdular. Biz onun sürücüsünü susdurduq, bundan sonra düşmənə sursat və təminat aparan daha iki "Kamaz" gəldi. Bir az ara sakitləşdi, biz də mərmilərimizi doldurmağa başladıq.



Bu zaman snayperçimiz dedi ki, soldan şəxsi heyət gəlir. Haradasa məsafəmiz 350 metr olardı. Düşmən döyüşçülər yol döngəsindən dönürdülər, öndə isə komandirləri gəlirdi. Taqım komandirimiz düşməni aldadaraq "ölü bölgəyə" salmaq üçün pusquya çəkdi və uzaqdan onların komandirlərinin başından vurdu. Biz isə şəxsi heyətin arxaya qaçmasına imkan vermədik. Minaatanlarımız məsafəyə bölüb mərmiləri elə atdılar ki, ortalarına düşdü və bir tabora yaxın düşmən məhv oldu. Biz 38 nəfər idik, lakin atışmanın sonlarına yaxın bizə qüvvə gəlmişdi.

Həmin gündən sonra taqımımız tanındı və elə Şuşaya kimi də dəstənin önündə getdi. Füzulinin bir çox kəndini azad etsək də, rayonun özünə girmədik, əks tərəfdən iki gün palçıqlı sahələrlə yol qət edərək Cəbrayıla yollandıq. Burada da Silahlı Qüvvələrimiz düşməni darmadağın edərək qaçmağa məcbur etdi. Cəbrayıl rayonunun girişinə bayrağımızı sancdıq. Bir gün rayonun mühafizəsini saxladıq və digər korpusa təhvil verəndən sonra yenidən ikigünlük təxliyəyə qayıtdıq.

Cəbrayıl rayonundan sonra istiqamətimiz Qubadlı və Zəngilan rayonlarının ərazisinə idi, amma əmr verildi ki, birbaşa Şuşaya doğru istiqamətlənməliyik.

Buna görə Füzuliyə doğru gedib rayonun mərkəzinə hərəkət etdik. Burada şəhidlərimiz və yaralılarımız oldu, hətta əsir düşə biləcəyimiz anları da yaşadıq. Amma 14 gün Füzuli uğrunda ölüm-dirim savaşı apararaq, nəhayət, rayonun mərkəzini tam azad etdik. Bundan sonra Xocavənd rayonuna doğru istiqamət aldıq.



## Döyüş günlərimin ən qürurlu anı

Həyatımda heç zaman yadımdan çıxmayacaq, ölümün bir addımlığında olduğum və bəlkə də bir döyüşçü kimi taleyimi dəyişdirən savaş səhnəsi ilə Xocalının Sığnaq kəndində qarşılaşdım. Həmin kənddə durduğum mövqenin arxasında döyüşçülərimiz düşmənlə atışırdılar, mən də yolun mühafizəsində idim. Birdən əsgər yoldaşım dedi ki, Yaqubov, bizim formada şəxsi heyət gəlir. Dedim, ola bilsin ki, bizə kömək gəlir. Sonra isə düşündüm ki, bizə kömək gecə saat 1-də gəlib çatacaq, indi isə haradasa saat 17-18 radələridir. Amma yenə də öz-özümə dedim, get bax.

Bu zaman başımı sağa çevirəndə gördüm ki, palçıqlı, ağrəngli bir "Pikap" meşənin içərisindən yola çıxır, maşının arxasında da iriçaplı pulemyot var. Aramızda 40 metr məsafə olardı. Arxadan baxanda üzərindəki döyüşçünün kaskası bizim Milli Ordunun kaskasına oxşayırdı. Bir anlıq tərəddüd etdim ki, birdən öz döyüşçümüz olar, vuraram, Vətən xaini olaram, yaxud da vurmaram, şəxsi heyətimizi qırar. Aramızdakı məsafə bir az da azalanda o məni gördü və dərhal gözünü nişangaha qoydu ki, vursun. Mən bir-iki saniyə ondan cəld davranaraq pulemyotla onun alnından vurdum. Başı pulemyotun üzərinə əyildi, sadəcə, əli tətikdə olduğu üçün güllələr gəlib böyrümə mövqe üçün qoyduğum dəmirə dəydi, amma qəlpələri məni də tutdu. Buna baxmayaraq, silahı susdurmadım, atış vəziyyətində saxladım, maşının içərisindəkilərə də xəsarət yetirdim. Daha sonra əl qumbarasını çəkib maşının arxasına atdım və bundan istifadə edib yerdəyişmə etdim. 10 saniyə sonra onlar mənim çıxdığım yeri RPG qumbaraatanla vurdular.

Sonra bildik ki, mən vuran "Pikap"dan əlavə daha bir "Pikap" da var imiş, onların arxasında isə 11 nəfər şəxsi heyət - hamısı da xüsusi təyinatlılar. Mən birinci maşındakıları vurandan sonra digərləri qorxaraq dərəyə düşmüş və oradakı taqımımızla atışmışdılar.

Həmin vaxt düşmənin xüsusi təyinatlı alayının 20-yə yaxın döyüşçüsü ilə təkbaşına döyüşdüyümə görə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüm.



## "Ölümsüzlər dəstəsi"nin "Amansızlar taqımı"

Sığnaq kəndini azad edəndən sonra 4 gün oranın mühafizəsini saxladıq və qüvvələrimizə təhvil verərək Şuşaya doğru yol aldıq.

Daşaltı kəndi istiqamətinə getdik, amma Daşaltıya girmədik, yolun solu ilə gedib meşənin içindən yoldaşlarımla birgə iki gün Laçın dəhlizini müşahidə etdik. Erməni mülki əhalisi Şuşadan çıxır, təkər dolu "Kamaz"lar ora daxil olurdu. Dəhlizin sağından isə torpaq yolla ekskavator səngər qaza-qaza gedirdi. Yolboyu ancaq səngərlər idi və bu səngərlərin içində pulemyotçularla qumbaraatanlar yerləşdirilmişdi.

Düşmənin ağlına da gəlməzdi ki, biz sıldırımlardan çıxaraq gələ bilərik, ona görə ancaq yolu tuturdular.

Bir müddətdən sonra Laçın dəhlizində sol döngəyə hərəkət edəndə bizi gördülər. Düşmən bizə artilleriya ilə yaylım atəşi açmağa başladı. Məcbur olub sıldırımla qalxırdıq, bu zaman onlar sıldırımı vurmağa başladılar. Amma Allah bizi qorudu: yaralılarımız olsa da, dayanmadıq, sıldırımdan üzü Şuşaya doğru qalxdıq.



Şuşaya az qalmış iki təpə var idi: biri alçaq idi, digəri nisbətən hündür. Haradasa noyabrın 4-də orada atışma oldu, birinci təpəni götürdük, ikinci təpənin üstü ermənilərlə dolu idi. Sonradan onların çoxu Şuşanın mərkəzinə hərəkət etdiyi üçün orada cəmi 4 erməni qaldı, onlar qumbaraatanlardan atırdılar. Daxili Qoşunların snayperi onları zərərsizləşdirəndən sonra 4 taqımla hücum edib təpəni aldıq. Sonra bir taqım orada yerləşdi, qalanlarımız vaxt itirmədən Şuşanın içinə istiqamətləndik.

Noyabrın 6-da biz Şuşaya girəndə əvvəlki bölmələrimiz orada erməniləri qırmışdılar. Yolların ətrafı onların cəsədləri ilə dolu idi, amma sağ qalan ermənilər də vardı. Biz Bülbülün evinə qədər getdik, ondan sonra qala var idi, döyüşçülərimiz orada mövqe tutmaq istəyəndə tankla oranı vurdular. Əsgər yoldaşlarım daşların altında qalıb yaralansalar da, qətiyyətlə təxliyə olunmaq istəmədilər və döyüşü davam etdirdilər.



Mən özüm də Xocavəndin Böyük Tağlar kəndində yaralanmışdım, lakin bir an da döyüşü dayandırmaq fikri ağlımdan keçməmişdi. Hətta yaralı halda həmin kəndə bayrağımızı da özüm sancmışdım.

Qürur mənbəyimiz Şuşanı azad etdikdən sonra istiqamətimiz Şuşakənd, oradan da Xankəndi idi. Amma ermənilər aqibətlərinin çox pis olacağını, tamamilə məhv olacaqlarını bildikləri üçün kapitulyasiya aktına imza atdılar.

Beləliklə, bizim taqımımız da hünərli döyüş yolu keçərək, sona qədər cəsarətlə çarpışdı, vuruşdu və qazanılan böyük Qələbədə payı oldu.

Hələ döyüşə girməmişdən əvvəl təlimdə taqım komandiri bizə ad qoymuşdu - "Ölümsüzlər dəstəsi"nin "Amansızlar taqımı". O bizə demişdi ki, bu taqım döyüşdə öz sözünü deyəcək və doğrudan da, elə oldu.

## Erməni vandalları əmimi şəhid etdilər

Zəfər elan olunandan sonra 5 həftə Şuşada qaldıq, sonra Cəlilabada qayıtdıq. Bir aydan sonra Şuşaya ikihəftəlik mühafizəyə getdik. Aprelin 1-də isə ehtiyata buraxıldım.

Amma evə gələndə atamın, anamın saçının ağardığını gördüm, ermənilərin daha bir vəhşiliyinin üzücü xəbərini eşitdim: əmim Fəxrəddin Yaqubov müharibə bitəndən sonra - noyabrın 22-də vandal düşmən tərəfindən vəhşicəsinə öldürülmüşdü.

Əmim Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Qubadlı və Laçın istiqamətlərində gedən döyüşlər vaxtı ölən və yaralanan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularını döyüş meydanından çıxaran təcili tibbi yardım avtomobilinin sürücüsü olub. O, noyabrın 22-də Laçın rayonu ərazisində azaraq Ermənistan ordusunun olduğu əraziyə daxil olub və ermənilər tərəfindən əsir götürülərək öldürülüb. Nəşi isə noyabrın 30-da Azərbaycan tərəfinə təhvil verilib. Hərbi xidmətdə olduğum üçün ailəm əmimin ölümünü məndən xeyli müddət gizlətmişdi.

Hələ də düşmənə qarşı ürəyimdə olan nifrət hissi soyumayıb. Hətta hər an Ali Baş Komandanın əmrini gözləyirəm ki, tarixboyu ermənilərin qəsb etdikləri digər torpaqlarımızı da azad etmək üçün döyüşə atılım...



## Qarabağ zəfərini bizə Ali Baş Komandan qazandırdı

Müharibənin qələbə ilə başa çatması təkcə döyüşçülərin rəşadətinə görə deyil, müdrik rəhbərin, qətiyyətli sərkərdənin bacarığı sayəsində mümkün olur. Qarabağ zəfərini də bizə Ali Baş Komandan İlham Əliyevin yüksək komandanlıq qabiliyyəti, səriştəsi qazandırdı.

Hələ Vətən müharibəsinə qədərki müddətdə Ali Baş Komandan İlham Əliyev ordu quruculuğunun inkişafına böyük töhfə verdi: istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadir, yüksək döyüş ruhlu şəxsi heyətə malik güclü Azərbaycan Ordusu qurdu. Mənəvi-psixoloji durumu, maddi-texniki təminatı, fiziki hazırlığı yüksək səviyyədə olan Azərbaycan Ordusunun şəxsi heyəti hər an Ali Baş Komandanın əmri ilə Vətən torpaqlarımızı düşmən tapdağından azad etməyə hazır idi.



Cənab İlham Əliyev tərəfindən orduya göstərilən bu yüksək diqqət və qayğının təzahürü idi ki, qəhrəman döyüşçülərimiz cəmi 44 gün ərzində düşməni torpaqlarımızdan qovub çıxardılar. O cümlədən savaş üçün yüksək səviyyədə yetişdirilən Xüsusi Təyinatlı Qüvvələrin döyüşçüləri də hərb meydanında öz sözlərini dedilər. Düşmən bizdən çox qorxurdu, xüsusi təyinatlılarımızı görəndə bilirdilər ki, artıq ölümdən başqa çarələri yoxdur.

Bu gün bir döyüşçü kimi fəxarətliyəm ki, Ali Baş Komandan İlham Əliyevin xüsusi təyinatlılara, ümumilikdə Azərbaycan Ordusuna göstərdiyi yüksək etimadı doğrultmuşuq və burada mənim də zərrə qədər payım olub.

Həm də o baxımdan özümü qürurlu hiss edirəm ki, Ali Baş Komandan əsgər olaraq məni "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüb.

***Yeganə hüznüm isə çiyin-çiyinə vuruşduğum bir çox döyüşçü yoldaşlarımın şəhidliyidir. Hesab edirəm ki, bu gün mən sağ-salamat evimə, ata-anamın yanına dönmüşəmsə, bu məhz həmin şəhadətə ucalan qardaşlarımın qəhrəmanlıqları, sinələrini düşmən gülləsinə sipər etmələri sayəsində olub. Onların hər birinin ruhu qarşısında baş əyirəm.***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Ermənistan sülh müqaviləsini imzalamağa məcburdur

### O, üzərinə götürdüyü hüquqi öhdəlikləri tezliklə yerinə yetirməsə, "dəmir yumruq" yenidən işə düşməli olacaq

"...2020-ci ilin noyabr bəyanatının bu iki vacib bəndi icra edilməsə, bizim adekvat tədbir görməkdən başqa seçimimiz qalmayacaq". Prezident İlham Əliyev oktyabrın 14-də Astanada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında çıxışı zamanı bir daha bəyan etdi ki, Ermənistan hüquqi öhdəliklərini icra etməsə, Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz girişi təmin etməsə, Azərbaycan ərazisindən erməni silahlı qüvvələrini çıxarmasa, bu, onun üçün çox acınacaqlı nəticələrə gətirib çıxaracaq.

Ermənistanın sözügedən bəyanatın özünə aid hissəsini tez bir zamanda icra etməməsi "dəmir yumruğ"un yenidən işə düşməsinə səbəb olacaq və növbəti dəfə bu ölkəni nəinki arxalandığı bəzi Qərb dairələri, heç digər dünya ölkələri də bir yerə yığılsa, xilas edə bilməyəcək.

Necə ki Müzəffər Ali Baş Komandan İlham Əliyev Laçın şəhərində Azərbaycan bayrağını dalğalandırdığı zaman vurğulamışdı: "Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz. Biz haqqın, ədalətin, beynəlxalq hüququn tərəfdarıyıq və öz ərazi bütövlüyümüzü qoruyuruq, qorumuşuq, bərpa etmişik".

### Azərbaycan sülhə tərəfdardır

Azərbaycan 44 günlük Vətən müharibəsini parlaq zəfərlə başa çatdırdıqdan dərhal sonra Ermənistana iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün təkmil sülh modeli təklif edib. Ölkəmiz regionda təhlükəsizliyin, əməkdaşlığın, rifahın təmin edilməsinə yönəlik təşəbbüslərlə daim çıxış edib.

Lakin işğalçılıq eyforiyasından hələ də ayıla bilməyən Ermənistanın ötən vaxt ərzində sülh istiqamətində hansısa real addımlar atdığının şahidi olmamışıq. İşğalçı bu müddət ərzində barışığa aparan bütün yollarda maneə yaratmaqla məşğul olub, sülh istiqamətində gedən prosesləri yubatmağa, pozmağa yönəlik hər cür təxribata əl atıb.

Avropa İttifaqının vasitəçiliyi ilə keçən ilin dekabrından başlayan "Brüssel prosesi" sayəsində üçtərəfli görüşlərdə Ermənistan üzdə sülhə razı olduğunu bildirsə də, hər dəfəsində sülh sazişinin bağlanması ilə əlaqədar əməli işlər görməkdən yayınmağa çalışıb.

Lakin o da var ki, ermənilər hər dəfə ölkəmizə qarşı təxribatlara əl atdıqda layiqincə yerlərinə otuzdurulublar. Bu il avqustun 3-də Ermənistanın növbəti təxribatına cavab olaraq "Qisas" əməliyyatının keçirilməsi və ordumuzun Qırxqız yüksəkliyini, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürməsi, həmçinin sentyabrın 12-si gecədən başlayaraq Azərbaycana qarşı daha bir təxribat zamanı rəşadətli ordumuzun düşmənin layiqli cavabını verməsi buna əyani sübutdur.

### Ermənistanın danışıq masalarındakı riyakarlıq oyunu

44 günlük Vətən müharibəsində Azərbaycanın qarşısındakı biabırçı məğlubiyyətini həzm edə bilməyən Ermənistan daim revanşist mövqedə olub, xarici havadarlarına güvənərək ölkəmizə qarşı təxribat əməllərini davam etdirib.

Ermənistan rəhbəri danışıqlar prosesində riyakarcasına sülhə razı olduğunu bildirsə də, pərdə arxasında xislətinə uyğun davranaraq təcavüzkar siyasətindən əl çəkmədiyini göstərib.

Ermənistan elə sonuncu Praqa görüşündə də eyni ssenari və oyunu nümayiş etdirdi. Prezident İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Fransa Prezidenti Emmanuel Makron və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən dördtərəfli görüş zamanı qəbul edilən bəyanata əsasən, Ermənistan Qarabağ üzərində Azərbaycanın hakimiyyətini tanıdığını bildirmək məcburiyyətində qaldı. Praqada qəbul edilmiş bəyanatda da əksini tapdığı kimi, Azərbaycan və Ermənistan bir-birlərinin ərazi bütövlüyü və suverenliyini tanıdılar və bu xüsusda BMT Nizamnaməsi əsas sənəd kimi götürüldü. Yəni faktiki olaraq bu bəyanatda da Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu bir daha təsdiqini tapdı.

O cümlədən görüşdə bir neçə saat davam edən danışıqlar nəticəsində Ermənistan-Azərbaycan sərhədi yaxınlığında Ermənistan ərazisinə Avropa İttifaqının mülki missiyasının göndərilməsi barədə qərar qəbul olundu. Bu missiyanın məqsədi tərəflərə sərhədlərin çəkilməsində, delimitasiya ilə bağlı məsələlərin müəyyənləşdirilməsində kömək göstərməkdir. Məhz bu səbəbdən ölkəmiz buna razılıq versə də, bu missiyanı Azərbaycan tərəfinə göndərmək barədə olunan cəhdlər rəsmi Bakı tərəfindən qətiyyətlə rədd edildi. Buna görə də missiyanın Ermənistan ərazisində, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) məsuliyyət zonasında yerləşdirilməsi razılaşdırıldı.

### Sülh prosesini pozmaq üçün edilən əhəmiyyətsiz cəhdlər

İndiyədək keçirilən görüşləri sülhə yaxınlaşmaq üçün mühüm vasitə sayan Azərbaycandan fərqli olaraq, qarşı tərəf hər vəchlə prosesləri pozmaq cəhdlərini davam etdirir. Hər gün Ermənistan tərəfindən sərhəddəki mövqelərimizin atəşə tutulması buna bariz nümunədir.

Ermənistan Azərbaycanın sülhpərvərliyindən qaynaqlanan səbrindən istifadə edərək boynuna götürdüyü öhdəliklərdən yayınmaq üçün bacardıqca vaxtı uzatmağa çalışır.

Amma Azərbaycanın səbir limiti də tükənməz deyil və daşmaq üzrədir. Düşmən unutmamalıdır ki, Azərbaycan 44 günlük Vətən müharibəsində ərazi bütövlüyünü güc hesabına bərpa etdi, işğalçını kapitulyasiyaya məcbur etdi. O da gerçəklikdir ki, əgər erməni silahlıları öz xoşları ilə ərazilərimizi tərk etsəydilər, heç 44 günlük müharibəyə də ehtiyac olmazdı.

Eləcə də indi Ermənistanın qarşısında yalnız bir seçim var. Ya öz xoşu ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirərək bölgədə sülhə nail olunması işinə əngəl törətməkdən əl çəkəcək, ya da Azərbaycan güc yolu ilə onu buna məcbur edəcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## 19 oktyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi

Bütün cəbhəboyu döyüşlər davam edir.

Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları aparılır. Düşmən tərəfindən bölmələrimizin müdafiə mövqeləri atıcı silahlar, minaatanlar və toplardan atəşə tutulur.

Azərbaycan Ordusunun fəaliyyətləri nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.



Hazırda qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə nəzarət edir.

❖ ❖ ❖

Bir çox istiqamətdə döyüş mövqelərini itirən Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə geri çəkilib. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilib, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanıblar.

5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilib, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçıblar. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da var. Alayın bölmələrində ərzaq, yanacaq və döyüş sursatlarının çatışmazlığı barədə məlumat əldə edilib.



❖ ❖ ❖




Prezident İlham Əliyev xalqa müjdəli xəbər verir. Ali Baş Komandan rəsmi tviter səhifəsində yazır:

"Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin rəisi (DSX) general-polkovnik Elçin Quliyevi Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və DSX-nin iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad edilməsi münasibətilə təbrik edib və təbriklərinin bütün şəxsi heyətə çatdırılmasını tapşırır. General-polkovnik E.Quliyev DSX-nin şəxsi heyətinin Ali Baş Komandanın bütün tapşırıqlarını bundan sonra da layiqincə yerinə yetirəcəyini məruzə edir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycanla dövlət sərhədində növbəti dəfə vəziyyəti gərginləşdirməyə cəhd göstərir. Saat 11:10-dan başlayaraq Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqeləri iriçaplı silahlardan atəşə tutulur.

❖ ❖ ❖

Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət edir. Müraciətdə qeyd edilir ki, son günlər bəzi sosial şəbəkə istifadəçiləri əməliyyatların aparıldığı istiqamət və cari vəziyyətlə bağlı müxtəlif şəxsi fikirlər paylaşaraq hadisələri qabaqlamağa çalışırlar.

Nazirlik bildirir ki, bu cür addımlar həm məxfilik rejiminin pozulmasına, həm də hərbi qulluqçularımızın həyatının təhlükəyə atılmasına səbəb ola bilər:

"Bütün bunları nəzərə alaraq sosial şəbəkə istifadəçiləri və KİV nümayəndələrini rəsmi surətdə öz təsdiqini tapmamış məlumatları yaymamağa və yalnız Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq".

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri saat 12:00-dan başlayaraq işğal olunmuş Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini 82 və 120 millimetrlik minaatanlar və iriçaplı atıcı silahlardan atəşə tutur.

❖ ❖ ❖




"Ermənistan silahlı qüvvələri razılaşdırılmış müvəqqəti humanitar atəşkəs rejimini kobudcasına pozaraq oktyabrın 18-də saat 00:02-dən sonra Azərbaycanın yaşayış məntəqələrini və döyüş mövqelərini ağır artilleriyadan atəşə tutub".

Bu barədə Prezident İlham Əliyev özünün rəsmi tviter hesabında bildirir.

Dövlət başçısı qeyd edir ki, bu çirkin əməllər nəticəsində ölən və yaralananlar var: "Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək bir neçə yaşayış məntəqəsini işğaldan azad edib".

❖ ❖ ❖



Prezident İlham Əliyev Rusiyanın TASS İnformasiya Agentliyinə videomüsahibə verərək Ermənistanın elan olunan atəşkəsi növbəti dəfə pozmasını faktlara əsasən izah edir.

İlham Əliyev deyir ki, Moskva danışıqlarından sonra Azərbaycan üzərinə götürdüyü öhdəliklərə əsaslanıb, həmin öhdəlikləri yerinə yetirməyə çalışıb. Lakin təəssüf ki, Ermənistan atəşkəs rejimini kobud şəkildə pozub: "Danışıqlardan sonra heç 24 saat keçməmiş Gəncə şəhərinə hücum edildi. Gecə vaxtı - yatmış Gəncə şəhərinin yaşayış məhəllələrinə məqsədyönlü şəkildə zərbə endirildi. Birinci hücumdan sonra, - iki hücum olub, - həlak olanlar və yaralananlar hədsiz çox idi. Yəni Ermənistan atəşkəsi nümayişkaranə şəkildə pozdu. Beləliklə, o, vasitəçilərə hörmətsizlik, Moskvada belə uzun danışıqlardan sonra öz üzərinə götürdüyü öhdəliklərə hörmətsizlik göstərdi".

Prezident bir daha Ermənistan rəhbərliyinə sərt xəbərdarlıq edir: "Əgər ağıllarını başlarına yığmasalar, onların sonu çox acınacaqlı olacaq. Buna görə də sualınıza qayıdıram, biz baza prinsiplərinə tərəfdarıq, hesab edirəm ki, nizamlama mümkündür. Lakin bunun üçün erməni tərəfi elə indi, nə qədər ki, gec deyil, nə qədər ki, qarşımızda diz çöküb bu prinsipləri qəbul etmək və münaqişəni qaynar fazadan siyasi nizamlama mərhələsinə keçirmək üçün onun hələ vaxtı var".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Ermənistan: məğlubiyyətin xronikası

Qarabağda hərbi əməliyyatların gedişi göstərir ki, Azərbaycan tezliklə yekun qələbəni təmin edəcək və Ermənistan birmənalı şəkildə məğlubiyyətə məhkumdur. Elə N.Paşinyan hökuməti də vəziyyətinin çıxılmaz olduğunu başa düşdüyünə görə çox gərgindir. Axı Azərbaycanın hərbi yürüşü danışıqlarda Ermənistanın əsas spekulyativ arqumenti olan "təhlükəsizlik kəməri" adlanan ərazinin, yəni Dağlıq Qarabağa bitişik rayonların tədricən azad edilməsi ilə müşahidə olunur. Deməli, Ermənistan daha bu rayonlar üzərindən Azərbaycanla hansısa sövdələşmə edə bilməyəcək. Ordumuz bu imkanı Ermənistanın əlindən alır. İndi vəziyyət kəskin şəkildə dəyişib. Ermənistan nəinki aran Qarabağ üzərində nəzarəti itirir, həm də Dağlıq Qarabağın strateji bölgələrindən, məsələn, Hadrutdan geri çəkilib. Bundan əlavə, Ağdərədə strateji mövqelərini itirib.

❖ ❖ ❖

Azərbaycan Ordusu irəliləməyə davam edir. Ölkəmiz Qarabağda başqa bir vacib bölgədə, Xocavənddə də xeyli uğur qazanıb. Hərbi uğurlarımız status-kvonu tamamilə aradan qaldırıb, təmas xətti pozulub. Ermənistan müdafiə nazirliyinin nümayəndəsi Artsrun Ovannisyan televiziyadakı çıxışında etiraf edib ki, Azərbaycan Silahlı Qüvvələrinin yalnız kəmiyyət yox, həm də texniki üstünlüyü var. O vurğulayıb ki, bəzi sahələrdə Azərbaycanın gücü Ermənistanın gücünü 12 dəfə üstələyib:



"On iki dəfə çox, bunun nə olduğunu başa düşürsünüz? Bu, demək olar ki, müharibə tarixində heç vaxt olmayıb və ya çox nadir hallarda olub. Hazırda Qarabağda fövqəldövlətlərin arsenalında olan texnikalar tətbiq edilir. Ən yeni Türkiyə və İsrail texnologiyalarından istifadə olunur. Bu, yeni PUA-lar, yüksəkdəqiqlikli raketlər, raket-artilleriya kompleksi, REB sistemləridir. Biz beşinci nəsil müharibəsini görürük". A.Ovannisyan tərəflərin imkanlarının bərabər olmadığını, Azərbaycanın yüksək texnologiyalar seqmentinə böyük diqqət ayırdığını deyib.

❖ ❖ ❖

"İndi Ermənistanın işğal edilmiş ərazilərdə Azərbaycana müqaviməti əbəsdir və Bakı məqsədinə çatacaq. Sadəcə hələ də müqavimət niyyətindən əl çəkməyən Nikol Paşinyan iqtidarı bu siyasəti ilə daha böyük müharibə cinayətlərinə imza atmış olur". Bunu isə Rusiya Siyasi Araşdırmalar İnstitutunun baş direktoru, politoloq Sergey Markov deyib. O, qeyd edib ki, Azərbaycan Ordusu Ermənistan tərəfindən 27 ildən çox müddətdə zəbt edilmiş ərazilərinin artıq müəyyən hissəsini öz nəzarəti altına alıb: "Ermənistanın baş naziri bu müharibənin əsas səbəbkarıdır. Bu halda Ermənistanın siyasi və hərbi məğlubiyyətlərinin əsas səbəbkarı olan Nikol Paşinyan hər an hakimiyyətdən uzaqlaşdırıla bilər".

Politoloqun fikrincə, Ermənistanda hakimiyyət hərbi komitəyə ötürülə bilər: "Buna səbəb Ermənistanın açıq-aşkar hərbi məğlubiyyəti və Rusiyanın Sorosun əlaltısı olan Paşinyana kömək göstərmək istəməməsidir. Hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu əyani şəkildə göstərdi ki, o, daha yaxşı təchiz olunub, daha yaxşı hazırlaşıb və görünür, onun döyüş ruhu da yüksəkdir. Çünki o, öz əraziləri uğrunda vuruşur. Axı Rusiya da, dünya birliyi də Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır".

❖ ❖ ❖

Rusiyalı ekspert Andrey Petrov da baş verənlərdə günahkar kimi Paşinyanı görür və Ermənistanın məğlubiyyətini qaçılmaz sayır: "Məsələn, Gəncəyə son raket zərbəsindən sonra əminliklə deyə bilərik ki, həqiqətən, hazırda Ermənistanı terror təşkilatı idarə edir. Yəni Nikol Paşinyanın hakimiyyətini, rejimini yalnız terror təşkilatı kimi xarakterizə etmək olar".

Ekspertin sözlərinə görə, Paşinyan rejiminin mülki Azərbaycan əhalisi ilə bağlı planı var: "Ermənistanın hakimiyyətinin Azərbaycanın dinc sakinlərini öldürmək və qorxutmaq kimi planları və məqsədləri var. Və bu planı mərhələli şəkildə həyata keçirir. Beynəlxalq təşkilatlar neytrallıq oyununu dayandırmalı, Ermənistanın hərbi cinayətini, bu cinayətin dəlillərini tanımalıdır. Ermənistana təzyiq göstərilməlidir ki, onlar terrorçu hərəkətlərindən əl çəksinlər".

Paşinyan xalqına qarşı da cinayət edir. Ermənistan əhalisi onlar üçün əhəmiyyətsiz və mənasız müharibədə döyüşmək istəmir. 55 yaşadək kişilərin Qarabağı tərk edərək Ermənistana getməsi qadağan olunsa da, onları saxlamaq mümkün olmur. Xüsusən gənclərin böyük hissəsi artıq bölgəni tərk edib.

Ermənistan hakimiyyəti və ermənilər başqasının torpağında gözü olduqlarına, özgə torpağını işğal etdiklərinə görə bu gün cəzalarına çatırlar. Ermənistanın indiki hakimiyyəti düşdüyü məğlub vəziyyətdən çıxmaq üçün yol axtarır. Ancaq daxili kin, hikkə və nifrət onlara reallığı dərk etməyə imkan vermir. Bu da Ermənistan üçün daha acı məğlubiyyəti qaçılmaz edir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



Səndən ötrü can verməyə cümlə hazırız,
Səndən ötrü qan tökməyə cümlə qadiriz!..

◆ Vətənim Azərbaycandır!

# Batdal Bayraq





"Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı var. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibədə bir daha aydın oldu ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır".

İkinci Qarabağ savaşındakı şanlı qələbəni dəyərləndirərkən Ali Baş Komandan İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan bu torpaqlarda yaşayan hər bir kəsin doğma vətənidir. İstənilən ümummilli məsələlərdə nümayiş etdirilən birlik, döyüş meydanında göstərilən əsl şücaət bunun bariz təcəssümüdür.

Zəfərimizə gedən yolda yandırılan hər bir məşəl məhz Azərbaycanın cəsur döyüşçülərinin əli ilə qaldırılmışdı. Bu məşəllə dilindən, milliyyətindən asılı olmayaraq odlar yurdunda yaşayan qəhrəman Azərbaycan oğulları irəliləyirdilər: talışı da, ləzgisi də, udisi də, rusu da, avarı da, tatı da, axıska türkü də, yəhudisi də... Məhz onlar canları, qanları bahasına savaşıb Azərbaycanın yeni zəfər tarixini yazdılar, şəhidlik zirvəsinə ucalıb bu qələbənin bir parçasına çevrildilər.

Belə igidlərdən biri də 18 yaşında şəhidlik şərbətini içən Batdal Bayraxtarovdur.



## "Bizdən bircə gün belə ayrı qalmırdı"

Qubanın Ağbil kəndindəyik. Şəhidimiz Batdal Bayraxtarovun doğulub boya-başa çatdığı bu kənd axıska türklərinin kompakt yaşadıqları yaşayış məntəqələrimizdən biridir.

Azərbaycanın hər bir şəhər, rayon və qəsəbələrində olduğu kimi, bu kəndin də igid qəhrəmanı var. Adətən kəndlərdəki şəhid ailələrinə baş çəkən zaman yolu soruşmağa ehtiyac qalmır. Elə şəhidin xatirəsinə tikilən bulaq, küçədəki şəkil lövhə bələdçi rolunu oynayır. Elə kəndi gəzib Batdal Bayraxtarovun valideynlərinin yaşadığı ünvanı da evlərinin qarşısında asılmış şəhidin şəklindən tanıdıq.

Axıska türklərinin fəxri igidlərindən olan Batdal Bayraxtarov 2002-ci il aprel ayının 1-də anadan olub. 2008-ci ildə Ağbil kənd Bəhram Sultanov adına tam orta məktəbində təhsil almağa başlayıb. Məktəbi başa vurub, 2020-ci ilin may ayında vətənə xidmətə yollanıb.

Oğlunu vətən eşqi ilə böyütdüyünü deyən şəhidimizin atası Mikail Bayraxtarov Batdalın uşaqlıq illərini idmana olan sevgisi ilə keçirdiyini söyləyir. O, erkən yaşlarından başlayaraq məşğul olduğu cüdo idman növü üzrə bir sıra nailiyyətlərə sahib olub. Mikail Bayraxtarov deyir ki, bircə yarışı belə qaçırmazdı: "Evə gələr, həyəcanla bizə idman yarışının olduğunu deyərdi. Səhəri gün isə birincilik qazanmaqla bizi sevindirərdi. Mənim oğlum elə bu qoçaqlığını da Vətən müharibəsində göstərərək aramızdan ayrıldı".

Deyilənləri əks etdirən Batdal Bayraxtarovun qızıl, gümüş medalları, diplomları divarların əvəzolunmaz bəzəyi idi. O, özündən geriyə hər zaman ailəsinin iftixarla xatırlayacağı nailiyyətlər və xoş xatirələr qoyub getmişdi. Həmin anları yada salan Gülsənəm ana söyləyir ki, Batdal məktəbi bitirdikdən sonra həm Bakıda, həm də Türkiyədə idman üzrə universitetlərə qəbul olmuşdu. Lakin atası insult keçirdiyindən gedib oxumadı, valideynləri ilə qalmağı seçdi: "Heç yadıma gəlmir ki, oğlum bizdən bircə gün belə ayrı qalsın. Hətta bazara, dükana gedəndə də mənimlə gələrdi, məni köməksiz qoymazdı. Bəlkə də elə bilirdi ki, bir gün bizdən ayrı düşəcək, ona görə də yanımızdan ayrılmırdı".

## Dəliqanlı yaşında şəhidlik zirvəsinə ucaldı

Ömrünün ən dəliqanlı yaşında işğal altında olan torpaqlarımızı qanı, canı bahasına azad edən şəhidimizi valideynləri böyük məğrurluqla xatırlayırlar. Ondan danışarkən deyirlər ki, Batdalın bircə xoşagəlməz hərəkətini, davranışını belə görməyiblər. O, ailənin ortancıl oğlu idi. Bacısı Nazlı və qardaşı Köşəliyə isə ata əvəzi olub.

Gülsənəm Bayraxtarova vurğulayır ki, Batdal hər zaman Nazlıya "bacı, sənin gözündə bir damla belə yaş görməyim. Sən mənim ən qiymətlimsən" deyirdi.

Batdal Bayraxtarov valideynlərinə yalnız bir dəfə yalan danışıb, o da Vətən müharibəsi başlayanda. Hətta savaşa qatıldığını belə ailəsindən bir müddət gizlədib.

Atası vurğulayır ki, nə vaxt telefonla danışsalar, harada olduğunu deməzdi: "Elə bircə kəlmə deyirdi ki, ata, narahat olmayın, komandirin yanındayam. Hər şey qaydasındadır. Ancaq biz yenə də onun müharibədə olduğunu hiss edirdik. Axırıncı telefon zəngində isə söyləmişdi ki, mən ermənidən qorxmuram. Çünki məni sən yetişdirmisən, qoçaqlıqda da sənə bənzəmişəm".




Ailəsi ilə sonuncu danışığını xatırlayan Gülsənəm Bayraxtarova isə həmin anı çox böyük kədərlə xatırlayır: "Sentyabrın 30-da balaca qardaşı Köşəlinin ad günü idi. Həmin gün Köşəlinin də gözü telefonda qalmışdı, ancaq zəng gəlmədi. 1-2 gün sonra birdən telefon zəng çaldı. Elə telefonu da Köşəli götürdü. Zəng edən Batdal idi. Dedi elə bilmə ki, mən sənin ad gününü unutmuşam, sadəcə həmin vaxt zəng etmək imkanım olmadı. Daha sonra ailəni qardaşına tapşırıb sağollaşdı".

Ananın bu sözlərindən sonra anidən sükut çökür. Sanki həmin an o telefon zəngi yenidən çalınmış və təkrarən eyni cümlələr səslənib dəstək asılmışdı...

Bir qədər sonra Mikail Bayraxtarov oğlunun adını çəkir - Batdal... Və ardınca deyir: "Bu ad cəsur, qəhrəman anlamını ifadə edir. Həm də babamın adı olub. O da döyüşçü idi. İkinci Dünya müharibəsində cəsur savaşçı kimi döyüşüb şəhid olmuşdu. İgidliyinə görə də oğluma onun adını qoymuşdum. Görünür, elə taleyi də onun kimi olacaqmış".

Batdalın bir çox arzusu vardı, ən böyük istəyi isə inşaat mühəndisi olmaq idi. Hətta deyirmiş ki, əsgərlikdən qayıdar-qayıtmaz mütləq oxumağa davam edəcək. Atası diqqətə çatdırır ki, o da inşaat mühəndisi olub: "Mən peşəmi o qədər sevirdim ki, oğlum da bu sevgini əla duyurdu. Ona işin bir çox xırdalıqlarını öyrətmişdim. İdmanı sevsə də, bu peşəyə də yiyələnmək istəyirdi. Oxuyub işinin peşəkarı olacaqdı, fəqət, tale onu başqa yola apardı".

## Daim ön sıralarda irəliləyir, mərdliyi, qorxmazlığı ilə seçilirdi

Döyüş yoldaşları isə Batdalla bağlı xatirələrini bölüşən zaman onun necə bir cəngavər və millətini sevən şəxs olduğunu dönə-dönə vurğulayırlar. Hətta qeyd edirlər ki, şəhidimiz Vətənin bütövlüyünün bərpasını, torpaqlarımızın azadlığını sanki hər kəsdən çox istəyirdi. Döyüş zamanı daim ön sıralarda irəliləyir, mərdliyi, qorxmazlığı ilə seçilirdi. Vətən sevgisi isə gözlərində parlayırdı.

Batdal Bayraxtarov sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə savaşıb və oktyabrın 12-də şəhidlik zirvəsinə ucalıb. Quba rayonunda dəfn edilib. Ölümündən sonra Azərbaycan Prezidentinin sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

Daha həyatlarında bir də heç nəyin əvvəlkitək olmayacağı o son telefon danışıqlarında əyan olmuşdu Könülə... İlk dəfə idi ki, Ramiqin səsində bu qədər nigarançılıq, bu qədər həyəcan duyulurdu. O, həyat yoldaşının ürəyindəki təlatümləri hiss etdiyini büruzə verməməyə çalışsa da, Ramiqin "Könül, müharibədir, hər şey ola bilər, sən güclü ol... Ağanı sənə, səni də Allaha tapşırıram" sözlərini eşidəndə dünya başına fırlanmış, qəlbindən ağrıqarışıq bir üsyan nidası qopmuşdu. Bir andaca taqətdən düşən gənc qadın güclə eşidiləcək səslə ümidsizcəsinə pıçıldamışdı: "Yox, yox, mən heç də sənin sandığın kimi güclü deyiləm, bacarmaram, gəl, özün uşağına sahib çıx, Ramiq..."
Sonra...

### İndi o da sozalan payız günəşinə bənzəyirdi

...Araya dərin və vahiməli bir səssizlik çökmüşdü və bu sükutu telefonun bir başından gələn partlayış, o biri başından eşidilən hıçqırıq səsləri pozmuşdu...

Beləcə, sevən iki qəlb, həyat yoldaşı, ata-ana bütün həyat səhifələrini elə o bir neçə dəqiqədə baş tutan telefon danışığında çevirmiş, birgə keçmişə aid xatirələrinə də, gələcəyə dair ümidlərinə də ötəri nəzər salaraq birdəfəlik nöqtə qoyub bağlamışdılar. O an dillərinə gətir-





# Könül yarım

## Şəhid Ramiq Mikayılovun həyat yoldaşı: "Onun adı hər zaman məni ucaldır"

məsələr də, hər ikisi qoşa çıxdıqları ömür yolunun zalım ayrılığa tuş gələrək ikiyə bölünəcəyini dəhşətlə hiss etmişdilər.

Sentyabrın 30-u 2020-ci il idi...

Artıq gün əyilir, hava yavaş-yavaş toranlaşır və aləm qaranlığa büründükcə, onun da üzərinə vahiməli bir ağırlıq çökürdü. Bu dözülməz sıxıntıdan can qurtarmağa çalışan gənc qadın pəncərələri taybatay açıb, üfüqdə sozalan payız günəşinin arxasınca həsrətlə baxırdı... Nədənsə indi o da özünü üzərinə zülmət çökən son baharın o solğun günəşi kimi çox köməksiz və çarəsiz hiss edirdi...

Övladı görməsin deyə gözlərindən muncuq-muncuq süzülən yaş damlalarını gizlincə silə-silə özünü toxtatmağa, bəd fikirləri qəlbindən qovmağa çalışırdı. Daha Könül bilmirdi ki, çox keçmədən tale ona həyatının ən ağır zərbəsini vuracaq, cəmi bir neçə saat əvvəl danışdığı Ramiqin şəhidlik xəbəri ilə dünyası siyaha boyanacaq...

### Bir könüldən min könülə

Ramiqlə Könül 2013-cü ildə tanış olmuş, gənclər elə ilk baxışdan bir könüldən min könülə vurulmuşdular bir-birlərinə. Cəmi bir ildən sonra isə həyatlarını birləşdirmiş, sentyabrın 25-də qız toyu, 27-də isə oğlan toyu olmuşdu. Ramiq hələ o zaman hərbi məktəbin sonuncu kursunda idi.

1993-cü il yanvarın 25-də Şamaxı rayonunun Ovçulu kəndində anadan olmuşdu Ramiq Namiq oğlu Mikayılov. 1999-2007-ci illərdə B.Alıyev adına Ovçulu kənd tam orta məktəbində, 2007-2010-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almış, daha sonra 2010-2014-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsilini davam etdirmişdi.

Ramiq Mikayılov 2014-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdi. O, hərbiyə olan sevgisi, istedadı, şəxsi əzmi sayəsində hələ çox erkən, cəmi 27 yaşında qərargah rəisi vəzifəsinə yüksəlmişdi. Xidməti vəzifəsini layiqincə yerinə yetirdiyi üçün "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medallarına layiq görülmüşdü.

Azərbaycan Silahlı Qüvvələrinin baş leytenantı olan Ramiq Mikayılov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Sentyabrın 30-da Xocavənd uğrunda gedən döyüşlərdə Ramiq Mikayılov şəhadətə yüksəlib. Qəhrəman şəhid doğulduğu Ovçulu kəndində torpağa tapşırılıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamına əsasən, Ramiq Mikayılov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.



### "Bir gün bir mərmi məni sənin həyatından ala bilər"

Ramiq Könüllə ilk görüşlərinin birində ona demişdi: "Könül, unutma, bir gün bir mərmi məni sənin həyatından ala bilər".

Amma Könül bu dəhşətli gerçəkliyi heç zaman qəbul etməmiş, qətiyyətlə fikrindən çıxarmağa çalışmışdı.

İndi Ramiqin hər sözünü, hər kəlməsini dönə-dönə yenidən ürək ağrısı ilə xatırlayan Könül deyir ki, hər zaman elə bil təbiət də bizim tezliklə ayrılacağımıza işarə vururdu.

- Qəribədir ki, hər dəfə Ramiq məzuniyyətə gələndə günəşli gün olsa da, yağış yağardı. Mən də hər dəfə ona zarafatla deyərdim ki, "ay Ramiq, sən niyə hər dəfə evə yağışla gəlirsən?" O isə hər dəfəsində üzümə baxıb gülümsəyər, deyərdi ki, "hələ bu nədir ki, Könül, mən öləndə tabutuma üçrəngli bayraq bürünəcək ha, bax, onda göylər də ağlayacaq, yerlər də..."

Ramiqi gördüyüm son gün, sentyabrın 22-də axşam işdən evə gələndə işıqlar söndü, səhərə qədər yanmadı. Sanki Allah həyatımın işıqlarının sönəcəyini qabaqcadan bildirir, məni buna hazırlayırdı.

### Sınıq xatirələr

Könül söyləyir ki, Ramiqlə birlikdə keçirdikləri cəmi altı illik qısa zaman onun üçün bir ömrə bərabər olub. Baxmayaraq ki, heç bu altı ilin özünü də ürəkdolusu birgə yaşaya bilməyiblər.

- Övladımız Ağaseyid 2015-ci ilin iyul ayında dünyaya gəlib. O zaman Ramiq cəmi 10 gün yanımızda ola bildi, daha sonra Ağcabədidə xidməti vəzifəyə getdi. Oradan mənə zəng vurdu ki, biz müvəqqəti ayrı qalmaq məcburiyyətindəyik, sizi bura gətirə bilmərəm. Mən Astarada anamgildə qaldım. Ramiq yanımıza yalnız məzuniyyət vaxtı gəlirdi. 6 il ailəli olduq, amma bu illər ərzində aramızda həsrət, hicran çox oldu. Hər zaman deyirəm ki, Ramiq mənim itməyən təqvimim oldu, ilboyu şənbə-bazarları, həftələri, ayları sayırdım ki, o, məzuniyyət götürüb yanımıza gələcək. Amma Ramiq gələndə bizə bütün bu çətinliklərimizi unutdururdu. Çox ailəcanlı, mehriban, qayğıkeş idi. Yanımızda olduğu günlərdə həyatımız o qədər şən, sevincli keçirdi ki, ayrılığı yaddan çıxarırdıq. Ramiq özü də deyirdi ki, "səninlə Ağa üzümə qapını açanda, elə bilirəm ki, bütün iş yorğunluğum canımdan çıxır..."

Düzdür, həyatımı Ramiqlə birləşdirəndə hərbçi həyatının çox çətin olduğunu bilirdim. Amma bu çətinliyi bilə-bilə onu seçdim və əgər bir daha dünyaya gəlsəm, sonumuzun ayrılıq olduğunu bilsəm belə, təkrar onu seçərdim. Ramiq əsl vətənpərvər Azərbaycan oğlu, sədaqətli həyat yoldaşı, qayğıkeş ata idi.



### "Yaralı olsam da, sürünə-sürünə özümü sənə yetirəcəm"

2020-ci ilin avqustunda Ramiq Ağcabədinin Qiyaməddinli kəndində ev tutaraq, birdəfəlik ailəsini yanına aparır. Amma nə yazıq ki, ailənin bu xoşbəxt və sevincli günləri cəmi 23 gün sürür. Bu 23 gün həm də həyatda üçünün birlikdə keçirdiyi son günlər kimi silinməz izlərlə Könül və balaca Ağanın yaddaşına ömürlük həkk olunur. Bu 23 gün Könülün son Ramiqli, Ağanın son atalı günləri olur.

- Sentyabrın 22-də gecə Ramiq işdən gəldi ki, bizi anamgilə yola salsın, özü də qayıdıb işə gedəcəkdi. Maşın gələnə qədər xeyli söhbət etdik. Artıq Ramiq işə dönməliydi, o bizimlə görüşəndə Ağa atasının ayaqlarını qucaqladı ki, "ata, sən də gəl bizimlə gedək"... O isə dedi ki, "atam (o, Ağanı belə çağırırdı), indi get, bir-iki günə yenə gələcəksiniz yanıma".

Nədənsə mən də kövrəlmişdim, elə bil nəsə ürəyimə dammışdı, görüşəndə dedim, "elə bilərsən ki, yanımda hər kəs var, anam, atam, bacı-qardaşım. Amma bilirsən ki, yanımda Ağa olsa belə həyatımda kimsə səni əvəz edə bilməz mənə".

O da kövrəldi, "narahat olma, mən yaralı olsam da, sürünə-sürünə özümü sənə yetirəcəm..." dedi.

### O gün göylər də ağlayırdı...

- Sentyabrın 27-dən sonra Ramiqlə telefonla danışırdıq, deyirdi ki, hər şey yaxşıdı, narahat olma. Amma televiziyadan cəbhədəki xəbərləri izləyirdim, daim narahatlıq içərisindəydim. 30-u günü səhər də, günorta da danışdıq. Nədənsə bu dəfə dedi ki, "işdir, nəsə olarsa, Ağa sənə əmanətdir". Ağayla da danışdı, ona da dedi ki, "məndən sonra evin kişisi sənsən, anandan muğayat ol".

Amma onda hər şeydən bixəbər körpəmin dilində bircə söz var idi ki, "ata, nə vaxt gəlirsən bizi də yanına aparmağa?"

Üzərindən heç bir neçə saat keçməmiş Ramiqin qara xəbərini aldım.

O, komandanlığın əmri olmasa belə döyüş yoldaşlarını tək buraxmamaq üçün əslində gecə getməli olduğu Xocavəndə yollanmışdı. Demişdi ki, yolu yaxşı tanıyır və getməsə olmaz. Həmin vaxt Ramiq digər 5 hərbçi yoldaşı ilə birgə Xocavəndə yola düşür. Bu zaman yolda düşmən onların maşınlarını atəşə tutur. Ramiq üç döyüşçü yoldaşı ilə birgə orada şəhadətə yüksəlir, iki nəfər isə yaralanır.

Ramiqin şəhidlik xəbərini eşitdikdən sonra mən Astaradan Şamaxıya necə getdiyimi bilmədim, orada Ramiqi nə halda gözlədim. Onun tabutunu üçrəngli bayrağa bürünmüş halda gətirdilər. O gün düz 11 saat Ramiq mənim bu dünyadakı ən əziz qonağım oldu. Eləcə səssiz, səmirsiz uzanmışdı, bizə hay da vermirdi. Ağa gəlib atasının tabutunu qucaqlayıb qışqırırdı ki, "ata, bəlkə oyanasan?" Onu birtəhər tabutdan uzaqlaşdırırdıq, amma uşaq yenidən qayıdıb gəlirdi, atasını çağırırdı, "ata, mənə cavab ver" deyirdi.

Artıq Ramiqin nəşini götürüb əbədi yolçuluğa uğurlayanda, hər zaman özünün də dediyi kimi, qəfil günün üzü tutuldu, göylər belə başladı tabutun üstünə ağlamağa...

Onda göyə baxıb çığırırdım ki, "Ramiq, sən arzuna yetdin. Əvvəl dediyin üçrəngli bayraqla gəldin, indi də göylər ağlayır. Eşidirsənmi məni, ay vəfasız, dur ayağa".

Günlərlə Ramiqin məzarından ayrıla bilmirdim, o torpaqdan elə bil Ramiqin gözəl ətri gəlirdi...

Ondan sonra mənim üçün həyat dayanıb. Biz ailə quranda cəmi 19 yaşım var idi, şıltaq, dəcəl bir qızcığaz idim, o mənim nazımı körpə uşaq kimi çəkirdi. İndi böyümüşəm, qocalmışam, təqvimlə 27 yaşım olsa da, ruhən özümü 50 yaşında hiss edirəm.

Rəqəmlərin mistikasına heç zaman inanmamışam, amma mənim həyatımın xoş rəqəmləri nədənsə çevrilib siyah oldu. Sentyabrda doğum günümü, evlilik ildönümümüzü qeyd edirdim. Amma o, bir anda dəyişdi, mənim sentyabrım qara oldu.

### "Bir zamanlar sevinclə keçən yaşantılarımızı indi gözyaşıyla xatırlayıram"

- Ramiq məndən zamansız getdi, ayrılıq qapımızı çox tez döydü. Ürəyimiz istədiyi kimi bir-birimizin yanında ola bilmədik. Yenicə çətin günlərimizi arxada qoymuşduq ki, fələk imkan vermədi, ömürlük ayrılıq divarı hördü aramıza. Bir zamanlar sevinclə, təbəssümlə keçən yaşantılarımızı indi gözyaşlarıyla xatırlayıram.

Gecələr nağıl əvəzinə oğlumuza Ramiqlə aramızda olan sevgidən, atasının vətənpərvərliyindən, igidliyindən danışıram. Təsəllim odur ki, indi oğlumuzun timsalında mən yenidən bir Ramiq böyüdürəm. Vətənpərvər, bayrağına dəyər verən, şəxsiyyətli bir insan.

Ramiq gedişi ilə mənə sağalmaz yara vursa da, dəmə bütün gücünü, cəsarətini də verib gedibmiş. Bu gün mən hətta bir qadın üçün çətin olan işlərin öhdəsindən də Ramiqin ruhundan, onun mənə əmanəti olan Ağanın gözlərindən güc alaraq gəlirəm.

Düşünürəm ki, o, hər zaman mənimlədir, tez-tez yuxularıma gəlir, həmişə də deyir ki, niyə ağlayırsan, axı mən heç hara getməmişəm, burada yanındayam.

Ramiqin yoxluğunun ağrı-acısını sözlə ifadə etmək çox çətindir. Amma həm də qürurlu şəhid xanımıyam. Axı mən Ramiqin, sevib evləndiyim, fəxarət duyduğum şəxsiyyətli Azərbaycan kişisinin həyat yoldaşıyam. Onun adı hər zaman məni ucaldır. Hər dəfə kimsə deyəndə ki, şəhid Ramiq Mikayılovun həyat yoldaşıyam, onda qürurumu yerəgöyə sığdıra bilmirəm. Çünki Ramiq mənim üçün sağdır. Ruhu hər zaman mənimlədir və bütün günü evdə təkbaşına onunla danışıram.

### Ramiqdən sonra...

2020-ci il sentyabrın 30-da o, təkcə Ramiqi yox, sevdiyi insanla birgə bütün arzularını, xəyallarını, sevincini, xoşbəxtliyini də dəfn etdi. Ömrünün yazında zimistana yaxalandı, gecədən qara saçlarına bəyaz qar dənləri ələndi. Gənclik eşqi ilə çarpan ürəyinə qəmdən kölgə düşdü, üzünə kədər cığır saldı, könlü yaralandı.

Ramiqdən sonra o, bu həyata sadəcə bir amala yetmək üçün bağlandı. Həyat yoldaşına söz verdiyi kimi, güclü olacaq, onun əmanəti Ağanı şəhidimizin şöhrətli adına yaraşacaq şəkildə böyüdəcək. Ağa da vətənini sevən qürurlu zabit olacaq. Elə qəhrəman şəhidimiz Ramiq Mikayılovun arzularında olduğu kimi...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Şahbuz Rayon Maliyyə Şöbəsi və Statistika İdarəsi üçün yeni bina istifadəyə verilib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: "Biz inamla irəliyə gedirik. İrəliyə getmək üçün bizim yolumuz açıqdır. Bu yolun təməlini Ulu Öndər qoymuşdur. Bir daha demək istəyirəm ki, biz bu siyasətə sadiqik. Bizim yolumuz müstəqillik, milli ləyaqət, inkişaf, tərəqqi yoludur. Bizi bu yoldan heç kim döndərə bilməz".



Bu gün dövlət başçısının rəhbərliyi ilə müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası davamlı inkişaf və tərəqqi dövrünü yaşayır. Sabitlik və sürətli sosial-iqtisadi inkişaf, aparılan genişmiqyaslı quruculuq işləri, açılan yeni iş yerləri, istehsal və xidmət sahələrinin yaradılması dövlət müstəqilliyinin bəhrələridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, oktyabrın 18-də - Müstəqilliyin Bərpası Günündə Şahbuz Rayon Maliyyə Şöbəsi və Statistika İdarəsi üçün yeni inzibati bina istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yaradılan şəraitlə tanış olub.

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Rəfael Əliyev çıxış edərək maliyyə orqanlarının fəaliyyəti üçün yaradılan şəraitə görə nazirliyin kollektivi adından minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Rayon Maliyyə Şöbəsi və Statistika İdarəsi üçün yeni inzibati binanın istifadəyə verilməsi münasibətilə kollektivləri təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Şahbuz Rayon Statistika İdarəsinin əməkdaşı Aytən Rüstəmli kollektiv adından minnətdarlıq edib.

Məlumat verilib ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan binanın 2 girişi vardır. Şahbuz Rayon Maliyyə Şöbəsi üçün binada 17 iş otağı, server, kombi və elektrik otağı, bufet nəzərdə tutulub. Binada şöbə əməkdaşlarının hər biri üçün ayrıca otaq, eləcə də qəbul otağı, əməliyyatların operativliyini təmin etmək üçün xəzinə əməliyyatı otağı, arxiv vardır. Şahbuz Rayon Statistika İdarəsi üçün isə 7 iş otağı ayrılıb.

Şahbuz Rayon Maliyyə Şöbəsi və Statistika İdarəsi ilə aid nazirlik və komitə arasında fasiləsiz elektron əlaqə təmin edilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsulov yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Binanın həyətində yaşıllaşdırma işləri aparılıb, su və işıqlandırma sistemləri qurulub.

## Şahbuz şəhərində mərasim evi istifadəyə verilib

Muxtar respublikada xalqımızın qədim adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunub yaşadılmasına xüsusi diqqət yetirilir. Məscid və mərasim evlərinin inşası da görülən bu işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir.

Oktyabrın 18-də Şahbuz şəhərində mərasim evi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, 104 yerlik mərasim evi zal, 2 mətbəx və kombi otağından ibarətdir. Mərasim evi Şahbuz şəhər bələdiyyəsinin balansındadır. Bina istilik və soyutma sistemləri ilə təchiz edilib, mətbəxdə mebel quraşdırılaraq lazımi avadanlıqlar qoyulub, həyət abadlaşdırılıb.

Şahbuz bələdiyyəsinin sədri İlham Qəhrəmanov Şahbuz şəhərində əlamətdar gündə mərasim evinin istifadəyə verilməsinin sakinlər tərəfindən minnətdarlıqla qarşılandığını bildirib.

Ali Məclisin Sədri qurulanların qorunması barədə tapşırıqlar verib.

## Şahbuz şəhərində məktəbdənkənar təhsil müəssisələri üçün yeni bina inşa olunur

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz şəhərində məktəbdənkənar təhsil müəssisələri üçün inşa olunan binanın layihəsinə baxıb, tikinti işləri ilə də maraqlanıb.

Məlumat verilib ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olacaq binada dəmir-beton işləri yekunlaşdırılıb. Tikinti işləri yekunlaşdıqdan sonra binada Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Texniki Yaradıcılıq Mərkəzi və Turist-Diyarşünaslıq Mərkəzinin fəaliyyəti üçün şərait yaradılacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinin gedişi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Azərbaycanın baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti İstanbulda işgüzar səfərdədir

Türkiyə Respublikasının baş prokuroru Bekir Şahinin dəvəti ilə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İstanbul şəhərində işgüzar səfərdədir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyəti tərəfindən İstanbulda Ulu Öndər Heydər Əliyevin adına park ziyarət edilib, abidəsi önünə əklil qoyularaq Ümummilli Liderin xatirəsi ehtiramla yad edilib.

Səfər çərçivəsində İstanbul şəhər baş prokuroru Şaban Yılmazla ikitərəfli görüş keçirilib. Kamran Əliyev hər iki ölkənin dövlət başçısı İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın sarsılmaz səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulayıb. Baş prokuror Türkiyənin Bartın vilayətindəki kömür mədənində çoxsaylı insan tələfatı ilə nəticələnən partlayışla bağlı həmkarına başsağlığını ifadə edib.

Ölkəmizin nümayəndə heyətini salamlayan İstanbul şəhər baş prokuroru tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə olduğu kimi, qardaş ölkələrimizin prokurorluq orqanları arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirib.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi görüşə görə minnətdarlığını ifadə edərək Şaban Yılmazın rəhbərliyi ilə nümayəndə heyətinin 2021-ci ilin noyabrında ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verdiyini qeyd edib.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq ikitərəfli qarşılıqlı fəaliyyətin səmərəliliyindən danışılıb, Türk Dövlətləri Təşkilatının Baş Prokurorluqları Şurası çərçivəsində əməkdaşlığın uğurla aparıldığı vurğulanıb. İki ölkənin prokurorluq orqanları arasında ənənəvi münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

# Vətən müharibəsində qazanılan qələbə tariximizdə yeni mərhələnin uğurlu başlanğıcının əsasını qoyub

## Zəfər forumunun növbəti ünvanı Gəncə şəhəri olub









Biləsuvardan start götürən Zəfər forumunun növbəti ünvanı oktyabrın 18-də Gəncə şəhəri olub.

AZƏRTAC xəbər verir ki, Gəncə, Mingəçevir, Yevlax və Naftalan şəhərlərini, Kəlbəcər, Göygöl, Samux, Daşkəsən, Goranboy və Xocalı rayonlarını təmsil edən şəhid ailələrinin, müharibə iştirakçılarının, şəhər və rayon fəallarının, habelə aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilən Zəfər forumu Gəncə Dövlət Filarmoniyasında təşkil olunub.

Forumda Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Prezident Administrasiyasının məsul əməkdaşı Əli Pənahov, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, adları qeyd olunan şəhər və rayonların icra hakimiyyəti başçılarının müavinləri iştirak ediblər.

Qonaqlar tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Şəhidlər xiyabanını ziyarət ediblər.

Sonra forum iştirakçıları "ASAN Könüllüləri" Təşkilatının "Əsgərə məktub" layihəsi çərçivəsində Vətənimizin keşiyində dayanan əsgərlərimizə məktub ünvanlayıblar.

Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu forum Dövlət himninin səsləndirilməsi və Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbiri Gəncə İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov açaraq növbəti Zəfər forumunun Gəncədə keçirilməsindən məmnunluq duyduğunu bildirib, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun düşmən üzərində qazandığı parlaq qələbədən, Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi şücaətdən danışıb.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev çıxış edərək, Zəfər forumunun Gəncə şəhərində keçirilməsinin təsadüfi olmadığını, 44 günlük Vətən müharibəsi zamanı Gəncənin erməni təcavüzkarlarının xaincəsinə törətdiyi terror aktlarına qarşı sarsılmaz dözüm və qəhrəmanlıq nümayiş etdirdiyini vurğulayıb. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Ermənistanın Gəncədə törətdiyi terror aktı zamanı paylaşdığı sözləri xatırladıb: "Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!"

Vüsal Quliyev Müzəffər Ali Baş Komandanın qətiyyəti, xalqımızın sıx birliyi, əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində əldə olunan qələbənin tarixi inkişafımızda və yüksəlişimizdə yeni mərhələnin uğurlu başlanğıcının əsasını qoyduğunu bildirib. Qeyd edib ki, Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə həm diplomatiya sahəsində, həm də informasiya məkanında gedən müharibədə əzmlə, dəyanətlə mübarizə apararaq Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırdı.

Zəfər forumlarının bütün ölkəni əhatə edəcəyini söyləyən V.Quliyev bildirib ki, bu forumlar yerlərdə xüsusilə gənc nəslin qələbəmiz barədə daha dolğun məlumatlanmasına imkan verəcək.

Daha sonra forumda iştirak edən Milli Qəhrəman valideynlərinin, şəhid ailələrinin və müharibə iştirakçılarının çıxışları dinlənilib.

Tədbirdə hərbi vətənpərvərlik musiqiləri ifa olunub, səhnələr nümayiş etdirilib.

Sonda forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət edilib, xalqımıza Zəfər sevincini yaşatdığına görə dərin ehtiram ifadə olunub.

Qeyd edək ki, növbəti forumlar Ağstafa, Qusar, Ağdam, İsmayıllı, Sabirabad və Bakıda keçiriləcək.

# Azərbaycanın UNESCO İcraiyyə Şurasının sessiyasında təqdim etdiyi qərar layihəsi yekdilliklə qəbul olunub

UNESCO-nun İcraiyyə Şurasının 215-ci sessiyasında Azərbaycan yeni uğura imza atıb. Ölkəmizin təklifləri yekdilliklə qəbul olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın UNESCO-nun 215-ci sessiyasının gündəliyinə təklif etdiyi "Fit For Life" təşəbbüsünün həyata keçirilməsi və Fiziki Təhsil və İdman üzrə Nazirlərin və Yüksəksəviyyəli Şəxslərin 7-ci Beynəlxalq Konfransı (MINEPS VII)" başlıqlı qərar layihəsi yekdilliklə qəbul edilib.




Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev 61 ölkənin sponsorluğu ilə Azərbaycan tərəfindən təqdim olunan qərar layihəsi haqqında danışaraq 2023-cü ilin martında Bakının Fiziki Təhsil və İdman üzrə Nazirlərin və Yüksəksəviyyəli Şəxslərin 7-ci Beynəlxalq Konfransına evsahibliyi edəcəyini xatırladıb. Bildirib ki, Azərbaycan UNESCO-nun "Fit For Life" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdəndir.

Qərar layihəsinin əsas məqsədi dünyada gənclərin rifahını artırmaq üçün inklüziv və inteqrasiya edilmiş yol xəritəsi hazırlamaq, idmanda səfərbərliyi gücləndirməkdir.

# *Niderlandlı jurnalist:* "Çox istərdim ki, parlament üzvləri Azərbaycana gəlib Qarabağ müharibələri zamanı baş verənləri görsünlər"

Niderlanddan olan yazıçı-jurnalist Henri van Rens Şuşaya səfər edib. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, qonaq Azərbaycanın qədim mədəniyyət mərkəzləri, eyni zamanda buraya gedərkən yolboyu ermənilərin viran qoyduqları digər yaşayış məskənləri ilə tanış olub.

O, erməni təcavüzünü pisləyib və fikirlərini belə ifadə edib: "Mən bu gün Şuşadayam. Bura Azərbaycan, xüsusilə Qarabağ üçün önəmli yerdir. Mən 28 illik işğal dövründə dağıdılmış abidələri gördüm. Şuşa səfəri mənim üçün vacib idi, Qarabağ haqqında yazdığım kitabda bu məlumatlara ehtiyacım olacaq".



Yazıçı Niderlandın rəsmi şəxslərinə Şuşadan çağırış edib: "Ümid edirəm ki, Niderlandla Azərbaycanın əməkdaşlığı genişlənəcək, oradan ölkənizə çox insan gələcək. Çox istərdim ki, sıravi vətəndaşlarla yanaşı, parlament üzvləri də gəlib Birinci və İkinci Qarabağ müharibələri zamanı baş verənləri görsünlər. Şuşaya gəldiyim üçün çox şadam. Bu şəhərə yenidən qayıtmaq istərdim, bura demək olar ki, yenidən qurulur. İnsanlar yaxın illərdə öz ata-baba yurdlarına qayıdacaq, sülh və əmin-amanlıq şəraitində yaşayacaqlar".

Qeyd edək ki, torpaqlarımız erməni işğalından azad olunandan sonra onlarla xarici jurnalistin, tarixçinin və yazıçının Qarabağa səfərləri təşkil olunub. Onlar dünya ictimaiyyətinin Azərbaycan həqiqətləri və erməni vandalizmi barədə məlumatlandırılması üçün mühüm addımlar atıblar.

# Qarabağda innovativ maliyyə-bank xidmətlərinin qurulması məsələləri müzakirə olunub

Azərbaycan Banklar Assosiasiyasının (ABA) təşkilatçılığı ilə Ekspert Qrupu üzvlərinin mədəniyyət paytaxtımız olan Şuşaya səfəri baş tutub.

ABA-dan AZƏRTAC-a bildirilib ki, səfər proqramı çərçivəsində keçirilən işgüzar görüşdə "İşğaldan azad olunmuş ərazilərdə innovativ maliyyə-bank xidmətlərinin qurulması" mövzusunda müzakirələr aparılıb. Eyni zamanda Şuşa şəhərinin tarixi memarlıq abidələri ziyarət edilib, iştirakçılara şəhərin tarixi-mədəni irsi ilə bağlı məlumat verilib.




Qeyd edək ki, ABA 1990-cı ildə kommersiya bankları tərəfindən təsis olunub. ABA-nın əsas məqsədi üzv-təşkilatları təmsil etmək, onların müxtəlif növ işgüzar xidmətlərə olan ehtiyaclarının ödənilməsinə dəstək göstərmək və fəaliyyətlərini əlaqələndirməkdən ibarətdir. Hazırda 25 bank və 5 qeyri-bank təşkilatı ABA-nın üzvüdür.







"...Düzlən, farağat, irəli addımla marş!"
Naryada hazırlaşan əsgərlər silahlarını da götürüb xidməti əraziyə yollanırlar. Beləcə Yuxarı Zeyxur sərhəd zastavasının növbəti naryadı dövlət sərhədinin mühafizəsinə başlayır. Sərhədin mühafizəsi isə sutkanın bütün saatlarında davam edir…

# Sərhədlərin etibarlı keşiyində



## Peşəkarlıq və yüksək maddi-texniki təminat

Dövlət sərhədi və onun toxunulmazlığı hər bir ölkənin ərazi bütövlüyünün əsas meyarlarından biridir. Azərbaycanda da sərhədlərin mühafizəsinin ən yüksək və peşəkar səviyyədə təmin edilməsi hər zaman diqqət mərkəzindədir. Təsadüfi deyil ki, sərhədlərimizin etibarlı şəkildə qorunması artıq uzun müddətdir ki, ölkəmizin yüksəlişinin mühüm göstəricilərindən biri kimi qeyd edilir.

Sərhədin qorunmasında xidmət göstərənlər xüsusi ehtirama layiqdirlər. Bu günlərdə Qusar rayonu istiqamətində Yuxarı Zeyxur sərhəd zastavasına baş çəkərək dövlət sərhədinin mühafizəsi, bu sahədə xidmətin necə təşkil olunması ilə tanış olduq. Qeyd edək ki, Yuxarı Zeyxur sərhəd zastavası ona təhkim olunmuş sahədə sərhədlərimizi mühafizə edir. Zastava ərazisinin səliqə-sahmanı, şəxsi heyət tərəfindən günün nizam qaydalarına tam əməl olunması ilk baxışdan xidmətin yüksək səviyyədə həyata keçirilməsindən xəbər verirdi. Gəlişimiz naryadın dəyişdiyi vaxta təsadüf etmişdi.

Vaxt itirmədən sərhəd naryadının işi ilə tanış olmaq üçün birbaşa sərhədə tərəf irəlilədik. Bizi müşayiət edən baş leytenant Elvin Zamanlının sözlərinə görə, dövlət sərhədlərinin etibarlı mühafizəsi sərhədçilərin peşəkarlığından və yüksək texniki təminatdan asılıdır. Bu baxımdan ölkəmizdə sərhədçilərin xidməti döyüş şəraitinin yaxşılaşdırılması, peşə bacarığının, səfərbərlik və döyüş qabiliyyətinin artırılması, yeni texnika, avadanlıq və digər vasitələrlə təminatı sahəsində mühüm addımlar atılıb. Elvin Zamanlı bildirir ki, zastavanın maddi-texniki təminatı da çox yüksəkdir və daimi olaraq yenilənir. Sərhəd naryadı ən müasir silahlarla, xüsusi avadanlıqlarla, müşahidə vasitələrilə təmin edilib. O cümlədən şəxsi heyətin qida təminatı sarıdan heç bir çətinlik yoxdur.

Baş leytenant Elvin Zamanlıdan təhkim olunduqları ərazidə hər hansı pozuculuq hərəkətlərinin baş verib-vermədiyi barədə də soruşuruq. Deyir ki, xidmət etdikləri sahədə mühafizə elə təşkil olunub ki, sərhədin pozulması mümkün deyil.

Qeyd edək ki, sərhəd naryadı zamanı müxtəlif vasitələrdən, o cümlədən atlardan, itlərdən istifadə olunur. Elə dövlət sərhədinə çatdığımız zaman zastavanın iki hərbçisi at belində ərazinin müşahidəsini həyata keçirirdi. Onlardan Böyükağa Cəlilov ilə söhbətləşirik. Əslən Ağcabədi rayonundan olan Böyükağa cəmi 4 aydır ki, əsgər kimi xidmət edir: "Əsgərliyə yollananda sərhədçi olacağımı bilmirdim. Sevinirəm ki, hərbi xidmətimi sərhədçi kimi keçirirəm. Çünki sərhədçi kimi vətənin nə demək olduğunu daha dərindən anlayıram. Bir əsgər kimi sərhədimizin etibarlı qorunması üçün bundan sonra da layiqli xidmət göstərəcəyəm".

Öyrənirik ki, Böyükağa Cəlilov həm də zastavanın xidməti atlarının təlimatçısıdır. O, hərbi xidmətə başlayanda xüsusi təlimdə də iştirak edib.

Naryadda olan digər iki əsgər isə xidməti fəaliyyəti piyada həyata keçirir, sərhəd dirəklərinin yaxınlığında şumlanmış ərazini diqqətlə yoxlayırdılar. Ərazinin şumlanması sərhədlərin mühafizəsi ilə bağlı həyata keçirilən mühəndis tədbirlərindən biridir. Çünki sərhədin pozulmasını şumlanmış əraziyə düşən ayaq izlərindən bilmək olur.







## Sərhədçi olmaq həm məsuliyyətli, həm də şərəflidir

Daha sonra zastavada şəxsi heyətin sosial-məişət şəraiti ilə tanış olduq. Müasir tələblərə cavab verən zastavada şəxsi heyət üçün lazım olan bütün məişət şəraiti yaradılıb: yataqxana, yeməkxana, istirahət və xüsusi təyinatlı otaqlar, təlim şəhərciyi, anbar, mərkəzləşdirilmiş istilik və işıqlandırma sistemi, hamam-camaşırxana, idman şəhərciyi, zabit və gizir ailələri üçün mənzillər sərhədçilərin istifadəsindədir. Bütövlükdə zastava Silahlı Qüvvələrdə həyata keçirilən yüksək quruculuğun nümunələrindəndir.

Zastavada naryaddan qayıdan əsgərlərin dincəldikdən sonra asudə vaxtlarını mənalı keçirmələri üçün də hər cür şərait yaradılıb. Əsgərlər burada kitab və qəzet oxuyur, stolüstü oyunlar oynayır, idmanın müxtəlif növləri ilə məşğul olurlar. Əsgərlərdən Rəhman Qasımzadə, Zeydulla Qəmbərov, Şamil Mancanlı və Elməddin Əliyevlə zastavanın istirahət otağında söhbətləşirik. Hər biri qeyd edir ki, sərhədçi olmaq həm şərəfli, həm də olduqca məsuliyyətlidir, sərhədlərimizin etibarlı şəkildə qorunması isə olduqca qürurvericidir.

Xalqımız qarşısında böyük məsuliyyət hissi daşıdıqlarını deyən sərhədçilər həm də dövlətimizin qoruyucusu olduqlarına görə fəxr etdiklərini, bundan sonra da xidmət zamanı Vətənimizin keşiyində ayıq-sayıq dayanacaqlarını bildirdilər.

## Sərhədçinin dostu

Sərhədlərin mühafizəsi zamanı həm də xüsusi təlim görmüş itlərdən istifadə olunur. Burada olarkən xidməti itlərin təlim şəhərciyi ilə də tanış olduq. Təlim şəhərciyinin rəisi çavuş İsmayıl Bayramlı bildirir ki, burada sərhədçilərin dostu olan itlərin sərhəd mühafizəsinə cəlb edilmələri üçün müxtəlif təyinatlı təlimlər keçirilir. Bunlar narkotik maddələrin axtarışı, partlayıcı maddələrin axtarışı, iz axtarışı təlimləridir. O cümlədən itlərdən işğaldan azad olunmuş ərazilərimizdə mina axtarışında da istifadə edilir.

Bizim gəlişimiz vaxtı iz axtarışına cəlb olunan itlərin təlimi başlamışdı. Artıq 8-ci ildir təlimçi kimi fəaliyyət göstərən gizir Zaur Qəmbərovun sözlərinə görə, təlimlər təcrübəli kinoloqlar tərəfindən keçirilir... "Bir təlim kursunun müddəti 3 aydır. Təlimlərə ölkənin bütün sərhəd dəstələrindən əsgərlər göndərilir və onların hər birinə bir it təhkim olunur. Təlim zamanı həm itlər həmin əsgərləri sahibi kimi tanıyır, həm də əsgərlər itlərin vasitəsilə xidmətin necə həyata keçirilməsini mənimsəyirlər".

Sərhədlərin mühafizəsində isə iki it cinsindən - alman çoban itindən və Belçika çoban iti olan "Malinua"dan istifadə olunur. "Malinua" Belçika çoban itlərinin dörd növündən biridir. İtin özəlliyi daha enerjili və çevik olması, həmçinin mükəmməl yaxşı təlim ala bilməsidir.

Yuxarı Zeyxur sərhəd zastavasında və xidməti itlərin təlim mərkəzində müşahidələrimiz bir daha təsdiq edir ki, dövlət sərhədlərimiz çevik, mütəşəkkil, ən müasir standartlar səviyyəsində mühafizə olunur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

*Bakı-Xaçmaz-Qusar-Bakı*









# Xarici səyyahlar Qarabağ və Şərqi Zəngəzurda erməni vəhşiliyinin şahidi oldular

## Onlar bunu ölkələrinin ictimaiyyətinə çatdıracaqlarını bildirdilər

Azərbaycanlılar artıq əbədi olaraq qədim yurd yerlərinə qayıdırlar. O yerlərə ki, otuz ilə yaxın Ermənistanın işğalında qalmışdı. Yağı düşmən həmin ərazilərdəki tikililəri yerləyeksan etmişdi, təbii sərvətlərini talamışdı. Azərbaycan xalqı kimi, onun maddi, mənəvi, tarixi irsi də soyqırımına uğramışdı.



44 gün davam edən Vətən müharibəsində qəhrəman oğullarımızın ölkəmizə qazandırdığı zəfər bu əzəli torpaqlarımızın - Qarabağın və Şərqi Zəngəzurun xilası oldu. Artıq Azərbaycan azad olunmuş ərazilərinin sürətlə bərpasına başlayıb. İki ilə yaxındır ki, genişmiqyaslı tikinti-bərpa, quruculuq işləri həyata keçirilir. Azərbaycan postmüharibə dövründə diplomatik müstəvidə də uğurlu nəticələr əldə edib. İşğaldan azad edilmiş ərazilərimizə səfər edən müxtəlif ölkələrin diplomatları, rəsmi şəxsləri, jurnalistləri, səyyahları və digər nümayəndələri quruculuq işləri ilə tanış olurlar. Səyyahlar azad olunmuş ərazilərimizin hər yanında infrastrukturların sürətlə tikildiyini, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verildiyini, Şuşada möhtəşəm layihələr həyata keçirildiyini və digər rayon mərkəzlərimizin müasir formada yenidən qurulduğunu görürlər.

Bu səfərlər zamanı dünyanın müxtəlif ölkələrindən gələn qonaqlar eyni zamanda həmin ərazilərin işğal müddətində ermənilər tərəfindən bütün infrastrukturun məhv edildiyinin, mədəni-tarixi abidələrin dağıdıldığının, ekologiyaya qarşı terror törədildiyinin şahidi olurlar. Dünya səyyahları Qarabağa, Şərqi Zəngəzura səfərlərində gördükləri bu acınacaqlı mənzərələrə həm təəccüblənir, həm də təəssüflənirlər.

Ötən bir il ərzində dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC (Extremal Travellers International Congress), MTP (Most Travelled People), TCC (Travelers' Century Club), "Nomadmania" klublarının təsisçiləri, prezidentləri və tanınmış üzvləri səviyyəsində qrupların Qarabağ və Şərqi Zəngəzura səfərləri təşkil olunub. Keçən ilin sentyabrında kommersiya təyinatlı sınaq uçuşu ilə ilk dəfə Qarabağa səfər edən xarici səyyahlar Ağdamda, sonra Şuşada olublar. Müxtəlif ölkələrdən olan 30-dan çox dünyaşöhrətli beynəlxalq səyyah Yuxarı Gövhər ağa məscidinə gediblər. Qonaqlara 30 illik işğal dövründə dini abidələrin, həmçinin məscidlərin erməni vandallığına məruz qaldığı barədə məlumat verilib. Bildirilib ki, Şuşa işğaldan azad olunandan dərhal sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb. Beynəlxalq səyyahlar şəhərin işğal dövründə erməni vandalizminə məruz qalmış qala divarları ilə tanış olublar. Zəfərdən sonra qalada təmir-bərpa işləri aparıldığını görüblər. Belçikadan olan səyyah Maselis Patrike deyib: "Bu gün biz Ağdamda olduq, oradan isə Şuşaya gəlmişik. Azad edilmiş ərazilərdə qısa müddət ərzində geniş bərpa işləri aparılıb. Ağdam Qafqazın Xirosiması sayılır. Mən orada dağıntıları gördüm. Ümid edirəm ki, ora artıq Xirosima olmayacaq".

Səyyah Sonriza Rasko bildirib: "Biz müharibənin olmasını istəmirik. Biz gördük ki, Azərbaycan artıq işğaldan azad edilmiş əraziləri bərpa edir. Bu, çox yaxşıdır".

ABŞ-dan olan səyyah Gina Moreno işğaldan azad edilmiş ərazilərdəki çoxsaylı dağıntıların arxasında insan faciəsinin dayandığını qeyd edib: "Bu, bizi kədərləndirir. Bu dağıntıların aradan qaldırılması isə bizi sevindirir".

Dünyanın 21 ölkəsindən olan tanınmış səyyahlar bu ilin fevralında Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər ediblər. Xocalı soyqırımının 30 illiyi ərəfəsində təşkil olunan səfər proqramı fevralın 16-da Şuşa şəhəri ilə tanışlıqla başlayıb. Həmin gün qonaqlar Ağdamda da olublar. Polşalı səyyah Daniel Zaqrodski gördüyü mənzərələrdən sarsıldığını dilə gətirib: "Yolboyu gördüyüm dağıntılar sadəcə dəhşətdir. Bir zamanlar kəndlərin olduğu ərazilərdə indi heç nə qalmayıb, hər şey dağıdılıb, silinib. Mən bu yerlərin çoxlu şəkillərini çəkdim. Ağdamdakı görüntülər kədərlidir. Bura "ruhlar şəhəri"nə çevrilib..."

Səfər proqramı Laçın və Kəlbəcər rayonlarını əhatə edib. Qonaqlar Birinci Qarabağ müharibəsi zamanı Kəlbəcər tuneli qarşısında ermənilər tərəfindən qətlə yetirilən azərbaycanlıların xatirəsini yad ediblər. Sonra Kəlbəcərin İstisu qəsəbəsinə gediblər. Onlara məlumat verilib ki, burada məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və sanatoriyası ilə bütün dünyada tanınıb. Daha sonra qonaqlar Laçın dəhlizindən keçiblər. Onlar yolboyu ətrafda ermənilər tərəfindən dağıdılmış binalara və tikililərə baxıblar.

İyunda 10 ölkədən - Danimarka, Almaniya, ABŞ, Sinqapur, Ukrayna, Türkiyə, İspaniya, Macarıstan, Hindistan və İsveçdən gəlmiş 24 səyyah və bloqçudan ibarət qrup Azərbaycanın işğaldan azad edilmiş ərazilərində olub. Şuşa, Ağdam, Zəngilan rayonlarına səfər edən qonaqlar həmin ərazilərdə erməni vandallığını öz gözləri ilə görüblər. Həmçinin Azərbaycan tərəfindən aparılan bərpa və quruculuq işləri ilə tanış olublar.

Sentyabrın 8-dən isə dünyanın 20-dən çox ölkəsindən 40-a yaxın beynəlxalq səyyah Qarabağ və Şərqi Zəngəzurda səfərdə olublar. Səfərin davam etdiyi üç gün ərzində beynəlxalq səyyahlar Şuşa-Ağdam, Xocavənd-Füzuli, Zəngilan-Cəbrayıl marşrutları üzrə hərəkət ediblər. Heyətin rəhbəri dünyanın ən nəhəng dörd səyyah klubundan biri olan ABŞ-ın MTP (Most Travelled People (Ən çox Səyahət Edən İnsanlar) klubunun təsisçisi Şarl Veley olub. Qonaqlar səfərin ilk günü Ağdama və Şuşaya gediblər. Növbəti gün Xocavənd və Füzuli rayonlarında olub, işğal zamanı həmin ərazilərdə ermənilər tərəfindən törədilən vandalizm və azad olunan ərazilərdə tikinti-quruculuq işləri ilə maraqlanıblar. Səyyahlar azad olunmuş ərazilərdə mina təhlükəsini, quruculuq və bərpa işlərini, erməni vandalizmi haqqında öz fikir və rəylərini dilə gətiriblər. Bolqarıstanlı səyyah Anna Pelova vurğulayıb ki, beynəlxalq ictimaiyyət diqqətini yalnız müəyyən ölkələrə yönəltməməlidir, onlar mina problemi ilə üzləşən hər kəsə, eləcə də Azərbaycana kömək etməyə borcludurlar. Səyyah deyib: "Əminəm ki, bu bölgənin turizm üçün böyük potensialı var. Burada ilk turistlər bizim kimi ekstremal idmanı sevən turistlər olacaq. Biz İspaniyaya, Portuqaliyaya, Fransaya uçmaqda maraqlı deyilik. Bizdə emosional iz buraxan, yaxşı hekayə danışa bilən yerləri sevirik. Çünki sonda biz biganə qalmayacağıq. Bundan əlavə, Azərbaycanın çox gözəl təbiəti, xoş xasiyyətli, mehriban insanları var. Azərbaycanlılar bərpa işlərini başa vurduqda, şübhəsiz ki, nəinki turistləri, hətta beynəlxalq təşkilatları, mətbuat nümayəndələrini də cəlb etmək imkanı olacaq ki, bu da Azərbaycanın möhtəşəm və təhlükəsiz ölkə olması faktlarının yayılmasına kömək edəcək".

Böyük Britaniyadan gələn London Universitetinin tarixçisi, Yaxın Şərq üzrə ekspert Furkan Cavaid Qarabağ münaqişəsinin faciəli olduğunu, ancaq xoşbəxtlikdən Azərbaycanın öz ərazilərini erməni işğalından azad etdiyini vurğulayıb: "Tikinti-bərpa işlərinin, xüsusən də Şuşada nə qədər sürətlə aparıldığı heyrət doğurur. Şəhər əlbəttə ki, turizm mərkəzinə çevriləcək. Məscidlərin, mədəni və tarixi irsin bərpası təkcə Azərbaycan mədəniyyəti üçün deyil, ölkəyə gələn qonaqlar üçün də mühüm məqamdır. Azərbaycan bu istiqamətdə çox gözəl işlər görür". Səyyah erməni vandalizminin qəbuledilməz olduğunu söyləyib. Bildirib ki, qarşı tərəfin tarixinə, adət-ənənəsinə hörmətlə yanaşmaq lazımdır, müharibə olsa belə obyektləri, binaları dağıtmaq olmaz. Furkan Cavaid deyib ki, beynəlxalq ictimaiyyət və təşkilatlar, həmçinin UNESCO boş dayanmamalı, çoxtərəfli həllər hazırlamalı və minatəmizləmə səylərini dəstəkləməlidirlər: "Əks halda münaqişələr uzun müddət davam edir. Məsələn, Anqolada onilliklər keçməsinə baxmayaraq, insanlar hələ də mina partlayışlarının qurbanına çevrilir, əl-qolunu itirirlər. Ona görə də dünya təşkilatları mütləq öz dəstəklərini verməlidirlər, kənarda qalmamalıdırlar".

Almaniyalı səyyah Yorgen Kuller bildirib ki, Şuşa və Ağdama səfər zamanı yolboyu çoxlu dağıntılar görüb: "Eyni zamanda yeni evlər, hotellər, mağazalar gördüm, fəal tikinti işləri gördüm, yeni yolu gördüm, bu, məni çox heyrətləndirdi".

Danimarkalı səyyah Matte Mikkelsen isə deyib: "Sevindiricidir ki, Azərbaycan Qarabağda ekoloji dayanıqlı layihələrə investisiya qoyur. "Ağıllı kənd" konsepsiyası təkcə "ağıllı" layihələrə deyil, həm də ekoloji dayanıqlı layihələrə investisiyalar baxımından kifayət qədər maraq kəsb edir".

Hər gəlişlərində işğaldan azad edilmiş ərazilərimizdə sürətlə aparılan quruculuq işlərindən təəccüb və məmnunluqla danışan xarici səyyahlar çox keçməyəcək ki, Qarabağ və Şərqi Zəngəzurda həyatın həmişəlik öz axarına düşdüyündən, yerli sakinlərin geri dönüb firavan yaşadıqlarından bəhs edəcəklər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Qələbənin 2-ci ildönümünə həsr olunan "Könüllü Qaliblər" proqramının ikinci komponentinə start verilib

"Könüllü DOST"larımız Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq bölmələrində fəaliyyət göstərən müharibə iştirakçılarını ziyarət edərək, onlara simvolik hədiyyələr təqdim edib, təbrik ediblər.

Əməkdaşlara təqdim olunan açıqcalarda əməkdaşlar şəhid övladlarına öz arzularını qeyd edərək, könüllülərə təqdim ediblər. Qeyd edək ki, layihə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi, "Könüllü DOST" proqramının təşkilatçılığı ilə həyata keçirilir. Proqram Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, o cümlədən nazirliyin tabeliyində olan qurumlarda fəaliyyət göstərən müharibə veteranları və şəhid ailəsi üzvlərini əhatə edir.

Panel müzakirələrin Zəfər Gününə kimi keçirilməsi nəzərdə tutulur.

## Ölkəmizdə istehsal edilən aksizli məhsulların Rusiyaya ixracı asanlaşır

Məlum olduğu kimi, Azərbaycan-Rusiya sərhədində aksizli malların rəsmiləşdirilməsi üçün xüsusi gömrük postu olmamışdır.

Bu, Azərbaycan məhsulları üçün ənənəvi bazarlardan hesab edilən Rusiya Federasiyasına şərab və spirtli içkilərin ixracının genişləndirilməsində çətinliklər yaradır, ixrac olunan məhsulların bahalaşmasına, vaxt itkisinə, rəqabət qabiliyyətinin aşağı düşməsinə gətirib çıxarırdı.

Bunları nəzərə alaraq, aksiz postunun müəyyən edilməsi ilə bağlı Azərbaycan və Rusiyanın aidiyyəti qurumları arasında keçirilən görüşlərdə bu məsələ vaxtaşırı olaraq qaldırılıb, müxtəlif platformalar vasitəsilə prosesin sürətləndirilməsi istiqamətində işlər aparılıb.

Görülmüş işlərin nəticəsi olaraq, Rusiya hökumətinin müvafiq qərarı ilə oktyabrın 7-dən "Yaraq-Qazmalar" beynəlxalq avtomobil gömrük sərhəd buraxılış məntəqəsində aksizli malların rəsmiləşdirilməsi üçün məntəqə müəyyən edilib. Bu, sahibkarlara aksizli malların, xüsusilə şərab və spirtli içkilərin ixracının genişləndirilməsinə əlavə imkanlar yaradacaq.

## Magistral kəmərlərlə 27 milyon 505,2 min ton neft daşınıb

9 ayda Azərbaycandakı magistral neft kəmərləri ilə 27 milyon 505,2 min ton və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,1 faiz çox neft nəql olunub.



Dövlət Statistika Komitəsinin məlumatına görə, nəqletmənin 78,9 faizi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) ilə həyata keçirilib və cari ilin doqquz ayı ərzində bu kəmərlə 21 milyon 688,4 min ton neft nəql edilib. Dövr ərzində BTC ilə 3 milyon 580,3 min ton tranzit nefti də ötürülüb.

# Ölkə üzrə 9 ayın makroiqtisadi göstəriciləri açıqlanıb

### ÜDM istehsalı 5,6, əhalinin gəlirləri nominal ifadədə 20,2 faiz artıb

Dövlət Statistika Komitəsi cari ilin yanvar-sentyabr ayları üzrə makroiqtisadi göstəriciləri əks etdirən hesabat açıqlayıb. Bildirilir ki, 9 ay ərzində ölkə üzrə 98,1 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövründəkindən 5,6 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. Əlavə dəyər istehsalı iqtisadiyyatın qeyri neft-qaz sektorunda 10,1 faiz artmış, neft-qaz sektorunda 2,5 faiz azalmışdır.

9 ay ərzində ÜDM-nin 52,2 faizi sənaye, 7,8 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6 faizi nəqliyyat və anbar təsərrüfatı, 4 faizi tikinti, 5,2 faizi kənd və meşə təsərrüfatları, eləcə də balıqçılıq, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,3 faizi informasiya və rabitə, 14,2 faizi digər sahələrdə istehsal olunmuşdur. Məhsula və idxala xalis vergilər ÜDM-nin 7,8 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə isə 9748,9 manat əlavə dəyər düşmüşdür.

Yanvar-sentyabr ayları ölkə üzrə 64,1 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir. Ümumilikdə bu dövrdə məhsul istehsalı sənayenin qeyri neft-qaz sektorunda 7,2 faiz artmışdır. Sənaye məhsullarının 75,8 faizi mədənçıxarma, 20,4 faizi emal, 3,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatı 5,4 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 9,8 faiz artmışdır.

Emal sektoruna gəldikdə, sair nəqliyyat vasitələrinin istehsalı 3,2 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 93,7, əczaçılıq məhsullarının istehsalı 38,1, elektrik avadanlıqlarının istehsalı 43, tikinti materiallarının istehsalı 17, mebel istehsalı 42,8, kimya sənayesi məhsullarının istehsalı 5,5, geyim istehsalı 44,7, metallurgiya sənayesi məhsullarının istehsalı 7,5, rezin və plastik kütlə məmulatlarının istehsalı 6,5, kağız və karton istehsalı 16,4, maşın və avadanlıqların istehsalı 49,4, hazır metal məmulatlarının istehsalı 34,3, qida məhsullarının istehsalı 9,3, ağacın emalı və ağacdan məmulatların istehsalı 10,3, kompüter, elektron və optik məhsulların istehsalı 23, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 63,1 faiz artmışdır. Azalma isə içki, toxuculuq sənayesi və neft məhsulları istehsalında, maşınların, eləcə də avadanlıqların quraşdırılması və təmirində qeydə alınmışdır.

Hesabatda bildirilir ki, ilin əvvəlindən ötən üç rüb ərzində əsas kapitala 10 milyard 154,4 milyon manat vəsait yönəldilmişdir. Bu, ötən ilin eyni dövründəkindən 4,6 faiz çoxdur. İstifadə olunmuş ümumi vəsaitin 59 faizi məhsul istehsalı və 34,5 faizi xidmət obyektlərinin, 6,5 faizi yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 75,5 faizi daxili sərmayələr olan vəsaitin 72,5 faizi bilavasitə tikinti-quraşdırma işlərində xərclənmişdir. Bu dövrdə neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi 13,5 faiz azalsa da, qeyri neft-qaz sektoruna sərf olunan vəsaitin həcmi 18,1 faiz artmışdır.




İlin əvvəlindən ötən 9 ayda ölkə üzrə neft-qaz sektoruna 3 milyard 603,3 milyon manat vəsait yönəldilmişdir. Qeyri neft-qaz sektorunun inkişafına yönəldilmiş 6 milyard 551,5 milyon manatlıq vəsaitin 897,7 milyon manatından (ümumi sərmayənin 8,8 faizindən) qeyri neft-qaz sənayesi sektorunda istifadə olunmuşdur. Bu dövrdə əsas kapitala həmçinin 2 milyard 488,8 milyon manat xarici kapital da yatırılmışdır. Həmin vəsaitin 93,8 faizi Birləşmiş Krallıq, ABŞ, Yaponiya, Türkiyə, Norveç, İsveçrə, Rusiya, İran, Hindistan və Fransa investorlarına məxsus olmuşdur.

Dövlət Statistika Komitəsi yanvar-avqust ayları üzrə ölkədə muzdla işləyənlərin orta aylıq əməkhaqqı barədə də məlumat açıqlamışdır. Bildirilir ki, Azərbaycanda bu dövrdə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2021-ci ilin eyni dövrünə nisbətən 14,3 faiz artaraq 829 manat olmuşdur. Əhalinin ümumi gəlirlərinə gəldikdə, həmin məbləğ cari ilin 9 ayında 51 milyard manata çatmışdır ki, bu da 2021-ci ilin eyni dövrünə nisbətən nominal ifadədə 20,2 faiz çoxdur.

Hesabatda o da bildirilir ki, yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 35 milyard 553,1 milyon manatlıq məhsul satılmış, 6 milyard 416,3 milyon manatlıq ödənişli xidmətlər göstərilmişdir. Keçən ilin eyni dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 2,9, əhaliyə göstərilmiş xidmətlərdən əldə olunan gəlir 7,8 faiz artmışdır.

DSK-nin hesabatına görə, xarici ticarət əlaqələrində də müsbət nəticələr qeydə alınmışdır. Belə ki, ilin əvvəlindən ötən 8 ay ərzində gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 35 milyard 608,3 milyon dollara çatmışdır. Ticarət dövriyyəsinin dəyər ifadəsində 26 milyard 739,9 milyon dollarını (75,1 faizini) ixrac, 8 milyard 868,4 milyon dollarını (24,9 faizini) idxal məhsulları təşkil etmişdir ki, bu da 17 milyard 871,5 milyon dollarlıq müsbət ticarət saldosu deməkdir. Xarici ticarətdə digər mühüm fakt ixracda qeyri-neft məhsullarının xüsusi çəkisinin artmasıdır. Hesabatda bildirilir ki, yanvar-avqust aylarında qeyri-neft məhsullarının ixracının dəyəri ötən ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 19, real ifadədə 7 faiz artaraq 1 milyard 885,5 milyon dollar olmuşdur.

Hesabatda həmçinin nəqliyyat, informasiya və rabitə xidmətləri barədə də rəqəmlər açıqlanıb. Qeyd olunur ki, 9 ay ərzində ölkənin informasiya və rabitə müəssisələri tərəfindən ümumilikdə 1 milyard 964,3 milyon manatlıq müxtəlif xidmətlər göstərilmiş və həmin xidmətlərin 75 faizindən əhali istifadə etmişdir. Yanvar-sentyabr aylarında bu xidmətlərin həcmi 15,5 faiz artmışdır. Əldə edilmiş gəlirlərin 82,5 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Nəqliyyat sektorunda isə göstəricilər belədir: cari ilin 9 ayı ərzində ölkə üzrə 157,6 milyon ton yük, 1,1 milyard nəfərdən çox sərnişin daşınmışdır. Ötən ilin eyni dövrünə nisbətən yük daşınması 12,3, sərnişin daşınması 38,9 faiz artmışdır.

Sonda istehlak qiymətləri barədə. DSK-nin açıqlamasına görə, yanvar-sentyabr aylarında ötən ilin eyni dövrü ilə müqayisədə ümumilikdə qiymətlər 13,4, o cümlədən ərzaq məhsulları, içki və tütün məmulatları 19,3, qeyri-ərzaq malları 7,6, əhaliyə göstərilən ödənişli qiymətlər 10,2 faiz bahalaşmışdır.

*"Azərbaycan"*

## Sahələrdən kondisiya çəkidə 127 min tona yaxın pambıq yığılıb

Ölkədə pambığın mexanikləşdirilmiş üsulla kütləvi yığımı davam edir. Bu günədək sahələrdən kondisiya çəkidə 127 min tona yaxın pambıq yığılaraq tədarük məntəqələrinə təhvil verilib.



Məhsul yığımı prosesinə ümumilikdə 447 kombayn və 3085 traktor yedəyi cəlb olunub ki, bu da məhsulun 100 faizə yaxınını texnika vasitəsilə yığmağa imkan verir.

Bu il Salyan rayonunda 9 min hektardan artıq sahədə pambıq əkilib. Artıq defolyasiya prosesi başa çatmış sahələrdə kütləvi yığım gedir. Fermerlər bu günədək sahələrdən 11 min tona yaxın məhsul yığaraq tədarük məntəqələrinə təhvil veriblər.

Dövlət dəstəyinin genişləndirilməsi fermerlərin pambıq əkininə marağını artırıb. Aqrar Subsidiya Şurasının qərarına əsasən, bu ildən tədarük məntəqələrinə təhvil verilən pambığa görə yalnız məhsul subsidiyası verilir. Eyni qərarla məhsul subsidiyasının məbləği hər tona görə 100 manatdan 170 manata qaldırılıb. Kənd Təsərrüfatı Nazirliyinin pambıq tədarükü və emalı müəssisələri ilə apardığı müzakirələr nəticəsində 2022-ci ildə şirkətlər tərəfindən xam pambığın alış qiyməti yanvar və avqust aylarında hər dəfə 50 manat olmaqla iki dəfə artırılıb. Ötən il 1-ci sort pambığın 1 tonu fermerlərdən 700 manata alınırdısa, bu il təhvil verilən eyni sort pambığın 1 tonuna görə fermerlərə 800 manat ödənilir. Məhsul subsidiyasına keçid və pambığn alış qiymətinin artırılması fermerləri aqrotexniki becərməni daha yaxşı aparmağa, daha çox məhsul istehsal edərək yüksək gəlir əldə etməyə sövq edir.

Respublikada pambıq yığımı davam edir. Yığımın optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

## Azərbaycan Macarıstan ilə KOB sahəsində əməkdaşlığa dair müzakirələr aparıb

Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Torman Kiçik və Orta Biznesin İnkişafı Agentliyində (KOBİA) olub.

KOBİA-dan bildirilib ki, agentliyin idarə heyətinin sədri Orxan Məmmədovla keçirilmiş görüşdə Azərbaycan və Macarıstan arasında KOB sahəsində əməkdaşlığa, bu istiqamətdə birgə tədbirlərin təşkilinə, hər iki ölkənin biznes dairələri arasında əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

## Milli Depozit Mərkəzində investorlara 1345 yeni hesab açılıb

Cari ilin 9 ayı ərzində Milli Depozit Mərkəzində (MDM) investorlara 1345 yeni hesab açılaraq ümumi say 118 min 855-ə çatıb.

MDM-dən AZƏRTAC-a bildirilib ki, yeni açılmış hesabların 1307-si rezident, 38-si qeyri-rezident investor hesabları olub.

# İndi Azərbaycan həm də beynəlxalq nəqliyyat dəhlizlərinin qovuşduğu məkandır

Əsrlərboyu qədim İpək yolunun əsas qovşağı olan Azərbaycan bu imkandan faydalanaraq Şərq və Qərblə qarşılıqlı faydalı ticarət əlaqələri qurmuşdur. Azərbaycanda iri şəhərlərin yaranması və onların ticarət mərkəzləri kimi formalaşması da bununla bağlı idi. Təəssüf ki, Azərbaycanın əvvəl çar, sonralar bolşevik Rusiyası tərəfindən işğalı bizi bu imkanlardan məhrum etmişdir.

Müstəqilliyimizə yenidən qovuşduqdan sonra Ümummilli Lider Heydər Əliyev tarixi imkandan yenidən faydalanmaq barədə qərar qəbul etdi. Ulu Öndər bu istiqamətdə ciddi diplomatik səy göstərərək "Şərq-Qərb" nəqliyyat marşrutu olan TRASEKA-nın formalaşmasına nail oldu. Amma bu, bir başlanğıc idi. Sonralar Prezident İlham Əliyev bu siyasəti 19 il uğurla davam etdirərək Azərbaycanı dünya əhəmiyyətli nəqliyyat qovşağına çevirdi.

Yaşadığımız XXI əsr sürət əsridir. İndi çox şeyin dəyəri sürətlə ölçülür. İnternetin, avtomobilin, qatarın, gəminin, təyyarənin sürətlisi daha qiymətlidir. Bu faktor dünya ticarət əlaqələrində də xüsusi əhəmiyyət kəsb edir.

Hazırda dünya ticarətinin 80 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilir. Əvvəllər bu, yükgöndərən və yük qəbul edən tərəfləri qane edirdi. İndiki sürət əsrində isə hər iki tərəf ticarət əlaqələrinin tez bir zamanda icra olunmasında maraqlıdır. Bu üzdən dünyanın nəhəng istehsalçıları ilə idxalçıları alternativ yolların axtarışına çıxıblar.

Rusiya Çin və Şərqi Asiya ölkələrinə Trans-Sibir dəmir yolundan istifadəni təklif edirdi. Bununla yanaşı, şimal qonşumuz ikinci Trans-Sibir dəmir yolunun tikilməsi təşəbbüsünü də irəli sürmüşdü. Rusiya həmçinin yüklərin Avropaya və geriyə daşınması üçün Şimal Buzlu okean marşrutunu da təklif edirdi. O, bunu ilin bütün fəsillərində yüklərin daşınmasına imkan yaradan güclü buzqıran donanmasının olması ilə əlaqələndirirdi. Lakin Rusiya-Ukrayna müharibəsi şimal qonşumuzun bütün istəklərinə son qoydu. Qərb-Rusiya qarşıdurmasının illərlə çəkəcəyi fikri həm Qərb, həm də Rusiya siyasətçiləri tərəfindən açıq şəkildə söylənilir. Üstəlik, məlum sanksiyalar üzündən ciddi fikir ayrılıqlarına malik olan tərəflərin yenidən iqtisadi münasibətləri və nəqliyyat əlaqələrini nə vaxt bərpa edəcəyi bilinmir.

Qeyd etdiyimiz faktorla bağlı dünya Trans-Xəzər marşrutunu ən məqbul variant sayır. Bu nəqliyyat dəhlizi yüklərin tez, təhlükəsiz və sərfəli tariflərlə daşınmasına imkan yaratdığı üçün bütün tərəflərə sərfəlidir. Üstəgəl, bu marşrut texniki parametrlərə görə də etibarlıdır. Yəni Trans-Xəzər nəqliyyat dəhlizi mükəmməl texniki bazaya malikdir.

Trans-Xəzər marşrutunu ticarət tərəfdaşları üçün cəlbedici edən amillər güclü dəniz donanması və Ələt Beynəlxalq Ticarət Limanıdır. Belə ki, bu limanın illik yükötürmə qabiliyyəti tezliklə 25 milyon tona çatacaq. Liman vasitəsilə həmçinin ildə 1 milyon konteyneri qəbul edib yola salmaq mümkündür. Artıq qətiyyətlə söyləmək olar ki, Ələt Beynəlxalq Ticarət Limanı dünyanın ən böyük ticarət limanlarından biridir. Elə buna görə son dövrlər bu limana təkcə Şərq ölkələri deyil, Avropa İttifaqı da böyük maraq göstərir.

Bəs bu nəqliyyat dəhlizinin üstünlükləri nədir? Birincisi, o, yüklərin daşınmasında vaxt və qiymət baxımından tərəflər üçün əlverişlidir. Yəni yüklərin nəqli alıcılar üçün tez və ucuz başa gəlir. İkincisi, yüklərin mənzilbaşına vaxtında çatdırılması üçün bütün texniki imkanlar mövcuddur. Məsələn, Asiyadan Avropaya göndərilən yüklərin Xəzər dənizinin üzərindən tez çatdırılması üçün güclü bərə donanması mövcuddur. Ən başlıcası, yüklərin bu marşrut üzərindən daşınması təhlükəsizdir. Odur ki, dünya Trans-Xəzər marşrutunu ən etibarlı yükdaşıma vasitəsi hesab edir.

"Şərq-Qərb" nəqliyyat dəhlizi ilə yüklərin daşınma müddətini 12 gündən 10 günə endirmək mümkündür. Bu fikir Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil Qaraismayıloğluya məxsusdur. Nazir vurğulayıb ki, Rusiya-Ukrayna müharibəsi Şimal dəhlizi ilə yükdaşımaları məhdudlaşdırıb. Odur ki, Orta dəhliz məsafə və müddət baxımından böyük alternativ sayılır: "Anadolunun qərbindən başlayaraq şərqə uzanan bu yol ticarətin fərqli qitələrə, hətta dünyaya yayılmasına imkan verir. Çindən Avropaya gedən yük qatarı Orta dəhlizi və Türkiyəni seçərsə, 12 gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət edəcək. Bu da Asiya və Avropa arasında qlobal ticarətdə dəhlizin nə qədər sərfəli və təhlükəsiz olduğunu nümayiş etdirir. Belə ki, Süveyş kanalı üzərindən gəmi 20 min kilometr yol qət edir. Orta dəhliz öz imkanları və region ölkələrinin koordinasiyalı əməkdaşlığı ilə dünya ticarətinin ən mühüm həlqələrindən biri olacaq. Biz Orta dəhlizi daha da gücləndirəcəyik".

Bir neçə il öncə Süveyş kanalında baş verən gəmi qəzası bir daha göstərdi ki, dünyanın təhlükəsiz alternativ marşrutlara ehtiyacı var. Məlumat üçün bildirək ki, hazırda dünya dəniz ticarətinin 7 faizi bu kanal üzərindən həyata keçirilir. Səbəb çox sadədir. Asiyadan Avropaya və əksinə hərəkət edən gəmilər Afrikanı dolanıb keçdikdə 8 gündən çox vaxt itirir. Süveyş kanalından istifadə isə vaxta qənaət etməklə yanaşı, həm də artıq vəsaitin xərclənməsinin qarşısını alır.

Göründüyü kimi, Süveyş kanalından istifadə dünya ölkələri üçün mühüm əhəmiyyət kəsb edir. Marşrutun qəza üzündən bağlanması nəticəsində dünya birjalarında neftin bahalaşması da bunu sübut edir. Xatırladaq ki, bu hadisədən sonra neft məhsullarının qiyməti birdənbirə 5 faiz bahalaşmışdı. Təsadüfi deyil ki, kanalın bağlı qalması hər gün dünya iqtisadiyyatına 10 milyard dollar ziyan vururdu.

Bu gün isə Avrasiya nəqliyyat dəhlizi daha cəlbedicidir. Üstəlik, Zəngəzur dəhlizinin açılması bu marşruta olan marağı daha da artıracaq. Artıq dünyanın nəhəng yükdaşıma şirkətləri yeni marşrutların axtarışına çıxıb. Həmin şirkətlər yüklərin ünvana təhlükəsiz və tez çatdırılması üçün yeni marşrutlara üstünlük vermək istəyirlər.

Rusiya-Ukrayna münaqişəsi ilə əlaqədar Çindən Finlandiyaya gedən ilk blok qatar yükləri Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə yola salınıb. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TRACEKA) çərçivəsində Qazaxıstanın Kurik limanından "Ağdam" və "Naxçıvan" gəmi-bərəsi ilə daşınan 54 konteynerdən ibarət blok qatarının birinci hissəsi mayın 27-də Bakı limanına çatdırılıb. Bərə terminalına yan alan yüklərin boşaldılması əməliyyatı operativ formada - 1 saat 45 dəqiqə ərzində icra edilib. "Naxçıvan" gəmi-bərəsində də sənədləşmə işləri tamamlandıqdan sonra boşaldılan yüklər operativ şəkildə alıcılara göndərilib. Finlandiyanın "Nurminen Logistics" şirkətinə məxsus yüklərin əsas hissəsi avtomobil ehtiyat hissələri, plastik məhsullar, tekstil avadanlıqları və qeyri-qida məhsullarından ibarətdir. Konteynerləşdirilmiş formada, platformalar üzərində daşınan bu yüklər Gürcüstanın Poti limanına yola salınaraq oradan Qara dəniz vasitəsilə gəmi-bərələrlə Avropaya - Ruminyanın Konstansa limanına göndərilib. Daha sonra isə blok qatar son təyinat ünvanı olan Finlandiyaya çatdırılıb.

Qeyd edək ki, bir müddət əvvəl "Nurminen Logistics" şirkətinin rəhbər heyəti Bakı Beynəlxalq Dəniz Ticarət Limanına səfər edib, texniki imkanlarla tanış olduqdan sonra blok qatarın məhz bu marşrutla daşınmasına qərar vermişdi.

Hazırda dünya ölkələri daşımaların daha ucuz və təhlükəsiz olan quru və dəmir yolu ilə həyata keçirilməsinə maraq göstərir. Zəngəzur dəhlizinin açılması ilə həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin imkanları genişlənəcək. Belə ki, nəqliyyat dəhlizlərinin şaxələnməsi yükdaşımaların etibarlılığını artıran mühüm faktordur.

Amma məlum olduğu kimi, ermənilər və onların havadarları Zəngəzur dəhlizinin açılmasına hər vəchlə mane olmaq istəyirlər. Bu da səbəbsiz deyil. Çünki Zəngəzur dəhlizinin açılması Azərbaycan və Türkiyənin dünya üçün siyasi əhəmiyyətini daha da artıracaq və nəticədə hər iki ölkə dünyada gedən siyasi proseslərə təsir göstərmək imkanı qazanacaq. Prezident İlham Əliyev layihəyə əngəl törətmək istəyən qüvvələrə qəti şəkildə xəbərdarlıq edərək demişdir: "İndi Ermənistan Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Amma nail ola bilməyəcək. Məcbur edəcəyik onları, məcbur edəcəyik. Necə ki, qovmuşuq torpaqlarımızdan, bütün istədiyimizə nail olacağıq".

Bu baxımdan 2020-ci il noyabrın 10-da imzalanmış məlum sənədə Prezident İlham Əliyevin tələbi ilə ilk baxışda məlum münaqişəyə aid olmayan, lakin ölkəmiz və region üçün çox vacib olan 9-cu maddənin salınması mühüm diplomatik qələbə sayılmalıdır. Həmin maddə Naxçıvanla birbaşa əlaqənin bərpasına imkan verir ki, bu da ilk növbədə muxtar respublikanın nəqliyyat blokadasından çıxması deməkdir. Lakin Azərbaycandan Naxçıvana dəmir yolu əlaqəsinin bərpası həm də "Şərq-Qərb", "Şimal-Cənub" dəhlizləri ilə bağlı yeni şərait yaradır.

Prezident İlham Əliyevin bu siyasi gedişi gələcəyə hesablanmış nəhəng geosiyasi və iqtisadi layihə kimi mühüm əhəmiyyət daşıyır. Çünki marşrutun fəaliyyətə başlaması Azərbaycanın mövcud nəqliyyat ötürücü imkanlarını daha da artıracaq. Bu, ölkəmizə geniş iqtisadi imkanlarla yanaşı, böyük siyasi dividendlər gətirəcək. Əvvəla ona görə ki, Azərbaycan-Naxçıvan marşrutu mövcud Bakı-Tbilisi-Qars dəmir yolu marşrutundan qısadır və bu həm yükgöndərən, həm də yük qəbul edən tərəflər üçün sərfəlidir. Dövlətlərarası ticarətdə bu faktora xüsusi önəm verirlər, çünki məsafə qısaldıqca daşınma xərcləri ucuzlaşır. Digər mühüm əhəmiyyət daşıyan fakt isə odur ki, alternativi çox olan hər bir marşrut daha etibarlı sayılır. Məsələn, hər hansı bir səbəbdən - istər siyasi, istərsə də təbii, yaxud texnogen qəzalar üzündən Bakı-Tbilisi-Qars marşrutu fəaliyyətini dayandırarsa, yüklərin Çindən Avropaya daşınması üçün Azərbaycan-Naxçıvan-Türkiyə marşrutundan istifadə etmək mümkün olacaq.

Məlum sanksiyalar səbəbindən Rusiya bu gün Asiya və Afrika bazarlarına daxil olmağa çalışır. Hazırda "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi şimal qonşumuzun əsas ümid yeridir. Onu da qeyd edək ki, Rusiyanın Zəngəzur dəhlizinə maraq göstərməsi də alternativ marşrut əldə etmək istəyi ilə bağlıdır. Zəngəzur dəhlizinin fəaliyyəti Rusiya üçün yeni bir nəfəsliyin açılması deməkdir.

Göründüyü kimi, Azərbaycan "Şərq-Qərb", "Şimal-Cənub" və "Şimal-Qərb" nəqliyyat dəhlizləri kimi regional bağlantıda mühüm mövqeyə malikdir. Ölkəmiz artıq Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Dünyanın bir çox ölkəsi bu reallığı qəbul edib Azərbaycanla nəqliyyat sahəsində əməkdaşlığa üstünlük verir. Vaxtilə Azərbaycana bu işdə siyasi əngəl törədənlər indi bizimlə iqtisadi əməkdaşlığa can atırlar.

Prezident İlham Əliyev dövlət başçısı seçildikdən sonra apardığı siyasətin tərkib hissələrindən biri də ölkəmizi beynəlxalq marşrutlar üzrə haba çevirməkdir. Bu siyasət davam edir. Belə ki, dövlət başçısı dəhliz məsələsini oktyabrın 11-də Qırğızıstanda səfərdə olarkən Prezident Sadıq Japarovla da müzakirə etmişdir. Prezident vurğulamışdır ki, Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu Orta Dəhlizin bir hissəsi olacaq. İlham Əliyev oktyabrın 13-də Qazaxıstan Prezidenti Kazım-Jomart Tokayevlə görüşərkən ölkəmizin Orta Dəhliz adlandırılan beynəlxalq dəhlizə dəstək verdiyini də bildirmişdir.

Dövlət başçısı ölkəmizin nəqliyyat imkanları barədə nüfuzlu regional təşkilat olan Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Toplantısının iclasında demişdir: "Hörmətli həmkarlar, Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib. 2022-ci ilin ilk doqquz ayı ərzində Azərbaycan ərazisindən keçən tranzit təxminən 65 faiz artıb.

Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir. Azərbaycan Orta Dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir".

Bu marşrut yaranışından bəri müxtəlif adlarla adlandırılır. Əsas məsələ odur ki, hansı ad daşımasından asılı olmayaraq "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin qovuşduğu məkan Azərbaycandır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Gəncədə keçirilən anım tədbirində erməni vəhşiliyi bir daha lənətləndi





44 günlük Vətən müharibəsində xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Bununla biz Vətən müharibəsində ermənilərin vəhşi simasını bir daha görmüş olduq.

Cəbhə bölgəsindən xeyli aralıda yerləşən Gəncəyə raket zərbələri endirməsi Ermənistanın təcavüzkar, terrorçu simasını bir daha ortaya qoydu. Qocaya, cavana, uşağa qıyan ermənilər müharibə qanunlarını pozaraq çirkin niyyətləri ilə nəyə xidmət etdiklərini bir daha göstərdilər.

Lakin Azərbaycan 44 günlük Vətən müharibəsində ermənilər tərəfindən törədilən bütün cinayətlərin qisasını aldı. Ordumuz uğurlu döyüş əməliyyatları apararaq tarixi ədaləti bərpa etdi. Təcavüzkar ermənilərin çirkin siyasəti iflasa uğradı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə Azərbaycan qalib oldu. 30 illik həsrətə son qoyuldu və tarixi torpaqlarımız işğaldan azad edildi.

Ermənilərin törətdikləri həmin faciələr gəncəlilərin və xalqımızın yaddaşından heç vaxt silinməyəcək. Dinc əhalini gecə yarısı evində yatdığı yerdə raket hücumuna məruz qoyması, qocaları, qadınları, hətta azyaşlı uşaqları qanına qəltan etməsi ermənilərin iç üzünü bir daha açmaqla onların məkrli niyyətlərini üzə çıxardı. Bu, Gəncənin raket hücumuna məruz qalmasının 2-ci ildönümündə keçirilən anım günündə də bir daha bəyan olundu. Gün ərzində insan izdihamı ilə müşayiət olunan dağılmış ərazini yerli sakinlərlə yanaşı, xarici jurnalistlər, diplomatik korpusun nümayəndələri də ziyarət etdilər.

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun rəhbərləri Gəncəyə səfərləri çərçivəsində əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül-çiçək dəstələri düzdülər. Sonra onlar Gəncədə Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində həlak olmuş mülki şəxslərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət etdilər.

Həmin gün Prezident Administrasiyasının, Respublikanın Baş Prokurorluğu nümayəndələrinin, Gəncə Şəhər İcra Hakimiyyəti rəhbərlərinin və xarici diplomatların iştirakı ilə Gəncə terroru qurbanlarının anım gününə həsr olunmuş tədbir keçirildi.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# DİA tərəfindən Qarabağ iqtisadi rayonu üzrə dövlət qulluqçuları üçün səyyar ixtisasartırma təlimi keçirilib









Ağdam şəhərində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonu üzrə dövlət qulluqçuları üçün ixtisasartırma təlimi keçirilib.

Təlim Ağdam Rayon İcra Hakimiyyətinin, Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə reallaşıb.

AZƏRTAC xəbər verir ki, təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları" mövzusunda interaktiv təqdimatla çıxış edib.

Urxan Ələkbərov təqdimatda Ümummilli Lider tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən işlənərək tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişaf naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevrilməsinə gətirib çıxardığını xüsusi vurğulayıb. Eyni zamanda Azərbaycanda tətbiq edilən innovativ idarəçilik texnologiyaları kompleksinin yüksək səmərəliliyinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin uğurla yerinə yetirilməsində və Ermənistan tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərin azad edilməsində təsdiqini tapdığını bildirib. Bu Zəfərin cəmi 44 günə qazanılmasını və Azərbaycanın ərazi bütövlüyünün tam bərpasını dövlət başçısının innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndirib.

Rektor Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideri olduğunu bildirib. Diqqətə çatdırıb ki, məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişafı indeksinin daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifah halının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. U.Ələkbərov vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var.

O, qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük payının olduğunu da xüsusi vurğulayıb. Bildirilib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir. Akademik qeyd edib ki, 8 noyabr 2020-ci il Azərbaycan tarixinə ən şanlı gün kimi yazıldı. Eyni zamanda Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün, 30 ildən artıqdır yürütdüyü işğalçılıq siyasətinin, xüsusilə müharibə cinayətlərinin mahiyyətini açmaqla bunun region üçün yaratdığı ciddi təhdidləri, Azərbaycanın haqlı mövqeyinin konkret faktlarla dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələrin informasiya məkanında düşmənin yalan üzərində qurulmuş təbliğatına ciddi zərbə vurduğunu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndiyini qeyd edib.

Rektor U.Ələkbərov təlimlər zamanı müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu da qeyd edib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni strateji dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarəedilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. U.Ələkbərov məruzəsini işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri, müstəqillik dövründə qazanılan siyasi, iqtisadi, hərbi uğurlar, inklüziv inkişafın idarə edilməsi sahəsində ölkənin əldə etdiyi nailiyyətlər barədə geniş elmi statistik təhlilə əsaslanan məlumatlarla yekunlaşdırıb.

Təlimin sonunda dinləyicilərin sualları cavablandırılıb.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professor-müəllim heyəti Ağdam şəhərində olan abidələri ziyarət ediblər.

# Şəhər sakinləri əmin edildi ki...



Mingəçevir Şəhər İcra Hakimiyyətinin ənənəyə çevirdiyi növbəti səyyar görüş 7 nömrəli tam orta məktəbin akt zalında keçirildi.

Şəhərin müxtəlif küçə və məhəllərindən gələn sakinlərin, idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirak etdikləri görüşdə ŞİH-nin başçısı İlham İsmayılov həyata keçirilən abadlıq-quruculuq işlərindən, yeni infrastruktir layihələrinin həyata keçirilməsindən danışdı.

Bildirildi ki, regional inkişaf dövlət proqramları çərçivəsində Mingəçevirdə yollar asfaltlanıb, yaşayış binalarının dam örtükləri təzələnib, binaların fasad hissələri bərpa olunub, ümumi istifadə sahələri əsaslı təmir edilib. Yaradılan yeni park və istirahət sahələrində yaşıllıq zolaqlarının salınmasından, şəhərdə yaşıllığın suvarılması və qorunması üçün texniki su xətlərinin daxili imkanlar hesabına çəkilməsindən söz açan natiq bu ilin sonuna qədər 50-dən artıq yaşayış binasında əsaslı təmir işlərinin başa çatdırılacağını nəzərə çatdırdı.

Çıxış edən şəhər sakinlərindən Mustafa Muradov, Qismət Əlizadə, Məmməd Qasımov, Əbülfət Əliyev, Muxtar Əhmədov, Arif Tağıyev, Marina Lastenka, Sevil Cəfərova, Məcid Allahdverdiyev şəhərdə həyata keçirilən quruculuq işlərinə görə minnətdarlıqlarını ifadə etdilər. Eyni zamanda sakinlər bəzi yaşayış binalarının zirzəmilərində antisanitar vəziyyətin hökm sürməsindən, şəhərin kanalizasiya sisteminin yarıtmaz işləməsindən, bir sıra binaların əsaslı təmirə ehtiyacı olduğundan danışdılar, uşaqlar üçün oyun meydançalarının yaradılmasının vacibliyini, təhlükəli ağacların budanmasının zəruriliyini və digər problemləri diqqətə çatdırdılar.

Görüşə yekun vuran İlham İsmayılov problemlərin aradan qaldırılması üçün müvafiq təşkilat rəhbərlərinə tapşırıqlar verdi və görüş iştirakçılarını əmin etdi ki, onlar yaxın zamanda öz həllini tapacaq.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Daşınan səyyar məktəb

## Ənənəvi təhsil müəssisəsindən geri qalmayan yüksəkkeyfiyyətli 384 modul tipli məktəbdə 19 mindən çox şagird təhsil alır





Bu ilin sentyabrında Prezident İlham Əliyev Azərbaycanda modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin davam etdirilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Elm və Təhsil Nazirliyinə 5 milyon manat ayrılıb.

Ümumiyyətlə, ölkəmizdə təhsilin keyfiyyətinin artırılması, xüsusən də ucqar kəndlərdə məktəb olmayan ərazilərdə şagirdlərin təhsilə əlçatanlığının təmin olunması məqsədilə həyata keçirilən bu layihə uğurlu layihələrdən biri hesab olunur. Layihənin icrasına 2017-2018-ci illərdə "Təhsildə keyfiyyət ili" ilə əlaqədar Prezidentin tapşırığına əsasən, qəzalı vəziyyətdə olan məktəblərin modul tipli məktəblərlə əvəz edilməsi ilə start verilib. Layihə çərçivəsində 44 rayonda 232 modul tipli məktəbin quraşdırılması nəzərdə tutulub. Pilot layihə olaraq ilk dəfə Göyçay, İsmayıllı və Lənkəran rayonlarında üç modul tipli məktəb quraşdırılaraq təhvil verilib.

Modul tipli məktəblərin quraşdırılması ilə bağlı layihə çərçivəsində ümumilikdə 2017-ci ildə 106, 2018-ci ildə 137, 2019-cu ildə 50, 2020-ci ildə 60, 2021-ci ildə isə 31, yəni 5 ildə 384 məktəb istifadəyə verilib.

### Yanğına, sukeçirməyə, çürüməyə, isti və soyuğa qarşı daha davamlıdır

Ümumiyyətlə, modul tipli məktəblər iqtisadi baxımdan daha səmərəli, yüksək keyfiyyətlidir və sənaye üsulu ilə hazırlanır. Belə məktəblərin daxilində və xaricində istifadə olunan materiallarda insan sağlamlığı üçün heç bir ziyanlı maddə yoxdur, yanğına, sukeçirməyə, çürüməyə, isti və soyuğa qarşı daha davamlıdır. Həmçinin bu məktəblərin salınması qısa zaman tələb edir, eyni zamanda tikintiyə o qədər də çox maliyyə vəsaiti tələb olunmur.

Az əhali yaşayan, məktəbə gedən uşaqların sayı nəzərə alınaraq müəyyən yaşayış məntəqələrində modul tipli məktəblərin salınması daha məqsədəuyğun hesab olunur. Az məsrəflə başa gələn belə məktəblər bütün lazımi avadanlıq və ləvazimatla təmin olunaraq ənənəvi məktəb binalarından heç də fərqlənmirlər.

Xarici ölkələrdə üstünlük verilən modul tipli məktəblər daşınması baxımından da rahat hesab olunur. Qeyd olunur ki, bir ənənəvi məktəbin inşası üçün lazım olan vəsaitlə 10-a yaxın modul tipli məktəb quraşdırmaq olar.

Modul tipli məktəblərin digər üstünlüyü isə qəzalı vəziyyətdə olan təhsil müəssisələrində təmir-tikinti işləri aparılarkən tədris prosesinin dayandırılmaması üçün 50 yerlik səyyar məktəb quraşdırılmasına imkan verməsidir.

### Təhsil təminatının yaxşılaşdırılması baxımından mütərəqqi qərar

Təhsil eksperti Elçin Əfəndiyev qəzetimizin əməkdaşına açıqlamasında bildirib ki, modul tipli məktəblərin tikintisi, eyni zamanda müvafiq ərazilər üzrə bu tip məktəblərin sayının artırılması, dövlət başçısı tərəfindən irəli sürülən hər bir vətəndaş üçün təhsilin əlçatanlığı dövlətin prioritet istiqamətlərindəndir. Məhz bu baxımdan modul tipli məktəblərin tikintisi daha sürətlə davam edir. Ekspert deyir ki, belə məktəblərin tikintisi daha tez əmələ gəlir və səmərəlidir. Hər hansı rayonda, ucqar dağ kəndində məktəb yoxdursa, orada qısa zamanda modul tipli məktəbi quraşdırmaq, uşaqların təhsil almasını təmin etmək mümkündür. Buna görə də modul tipli məktəblərin həm daha tez başa gəlməsi, həm də vətəndaşların təhsil təminatının yaxşılaşdırılması baxımından geniş vüsət alması mütərəqqi haldır.

Elçin Əfəndiyev qeyd edir ki, ölkədə 4440-dan çox ümumtəhsil müəssisəsi fəaliyyət göstərir və bu təhsil müəssisələrində 1 milyon 600 mindən çox şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 150 mindən çox müəllim heyəti məşğul olur.

Onun sözlərinə görə, regionlarda bəzi yaşayış məntəqələrində məktəb olmadığından şagirdlər yaşadıqları kənddən qonşu kəndin təhsil ocağına getmək üçün 3-4 kilometr yol qət etməyə məcbur olurlar: "Fikrimcə, həmin kəndlərdə də bu tip məktəblərin tikilməsi vacibdir. Modul tipli məktəblərin tikintisi sonuncu dəfə İsmayıllı, Cəlilabad və digər rayonlarda həyata keçirilib. Daha bir neçə ucqar yaşayış məntəqəsində yaxın illərdə bu tip məktəblərin quraşdırılması gözlənilir".

### Daha 30 modul tipli məktəb tikiləcək

Elm və Təhsil Nazirliyindən bildirilib ki, hazırda ölkəmizdə 53 rayonda ümumilikdə 384 modul tipli məktəb fəaliyyət göstərir. Onlardan 93-ündə ibtidai, 220 modul tipli məktəbdə ümumi təhsil, 71 məktəbdə isə tam orta təhsil səviyyəsi üzrə təhsil verilir. 2022-ci ildə Prezidentin sərəncamına əsasən, 30 yeni modul tipli ümumtəhsil müəssisəsinin tikintisi nəzərdə tutulub. Hazırda fəaliyyət göstərən modul tipli məktəblərdə 19000-dən çox şagird təhsil alır.

Nazirlikdən o da bildirilib ki, hazırda növbəti illər üzrə hansı bölgələrdə və neçə modul tipli məktəbin quraşdırılması müzakirə mərhələsindədir. İşğaldan azad olunmuş bölgələrdə isə əhalinin məskunlaşması prosesi davam etdikcə həmin yaşayış məntəqələrində ümumtəhsil məktəblərinin tikintisi təşkil olunacaq.

Təhsilin əlçatanlığının təmin olunması prioritet kimi, ölkəmizdə də vacib hesab olunur. Təhsil almaq hər kəsin hüququdur. Bu baxımdan xüsusən ucqar kəndlərdə yaşayan, müəyyən səbəblərdən - hava şəraiti, yol məsafəsi baxımından təhsildən uzaq düşən uşaqların təhsilə cəlb olunması istiqamətində də modul tipli məktəblərlə bağlı layihə məqsədəuyğun və uğurludur.

Modul tipli məktəblər Azərbaycan təhsilinə yeni nəfəs gətirib, şagirdlərin məktəbə cəlb olunması və qəzalı məktəblərin sayının azalması baxımından çox uğurlu layihədir. Məsrəflərin ənənəvi məktəblərdən az olmasını nəzərə alsaq, bu gün ölkədə səyyar tipli məktəblərin istifadəyə verilməsi təqdirəlayiq haldır. Bu məktəblər həm də ekoloji baxımdan uğurlu sayıla bilər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# AZAL uçuşların qabaqcıl peyk müşahidə sistemini tətbiq edir







AZAL Azərbaycanın hava məkanında real vaxt rejimində hava hərəkətinin idarə olunmasına (HHİ) dair yüksək tələblərə cavab verən "Aireon" peyk sistemi vasitəsilə təyyarə uçuşlarının qlobal müşahidə sistemini tətbiq edəcəkdir.

Qurumun Mətbuat xidmətinin verdiyi məlumata görə, bu qabaqcıl yenilik aerokosmik sahədə qlobal təkamül prosesləri çərçivəsində innovativ texnologiyaların üstünlüklərindən tam istifadə edilməsinə imkan yaradacaqdır.

2022-ci il oktyabrın 18-də "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərovla "Aireon" şirkətinin prezidenti və baş icraçı direktoru Don Toma arasında ABŞ-nin Azərbaycandakı müvəqqəti işlər vəkili Hugo Qevarın iştirakı ilə sözügedən sistemin tətbiqinə dair saziş imzalanmışdır.

Azərbaycanın hava məkanından keçərkən "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi (AZANS) tərəfindən xidmət göstərilən tranzit uçuşların sayının ikiqat artdığı bir zamanda mövcud sistemin tətbiqi daha da önəmlidir. Hər gün AZANS 550-yə yaxın hava gəmisinə aeronaviqasiya xidmətlərini təqdim edir. Bu isə pandemiya dövrünədək olduğundan daha yüksək göstəricidir.

"Aireon" hava hərəkətini peyk idarəetmə sistemi uçuşların təhlükəsizliyini və effektivliyini radikal şəkildə optimallaşdıracaq həll təklif edir, eyni zamanda aviaşirkət üçün real vaxt rejimində reyslərin qlobal izlənməsini təmin edəcəkdir. Bu sistemin tətbiq edilməsi və tam istifadəsi ADS-B avadanlıqları ilə təchiz olunmuş təyyarələrin müşahidə edilməsini təmin etməklə yanaşı, daha əlverişli marşrut və yüksəklikləri seçməyə imkan yaradacaqdır," - deyə AZAL prezidenti Cahangir Əsgərov bildirmişdir.

Beləliklə, bu sistem Azərbaycanın hava məkanında marşrutların iqtisadi effektivliyi və ekoloji təhlükəsizliyini təkmilləşdirməyə, yanacaqdan az istifadə etməyə və atmosferə zərərli tullantıların atılmasının minimuma endirilməsi ilə daha optimal marşrutlarla uçuşları planlaşdırmağa imkan yaradacaqdır. Eyni zamanda bu sistem Azərbaycan aviaşirkətlərinə mənsub təyyarələrin dünyanın istənilən nöqtəsində uçuşları haqqında operativ məlumatların alınmasına da əlverişli şərait yaradacaqdır.

"AZAL regionda aviadaşımaların effektivliyi və təhlükəsizliyi sahəsində aparıcı rol oynayır," - deyə "Aireon" şirkətinin prezidenti Don Toma vurğulamışdır. "Azərbaycanda kosmik texnologiyaların inkişafına rəhbərlik etmək istəyinə əsaslanaraq AZANS, "Aireon" şirkətinin ADS-B kosmik müşahidələrinin məlumatlarının Azərbaycanın hava məkanında istifadəsini tətbiq etməyə razılıq verməklə mühüm texnoloji addım atmışdır. "Aireon" şirkətinin məlumatları hava hərəkətini bilavasitə idarə edən dispetçerləri effektiv, təhlükəsiz və ekoloji cəhətdən təmiz müasir aeronaviqasiya xidmətləri ilə təmin etməklə AZANS-a Azərbaycanın hava məkanı haqqında tam təfərrüatlı məlumat təqdim edəcəkdir".

"ABŞ-nin Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Hüqo Qevara tədbirdə çıxış edərək demişdir: "Bu tədbir aerokosmik sahəsində olan tərəfdaşlığımızı vurğulayır. Mən müxtəlif iqtisadi sektorların Azərbaycanda uğur qazanmalarına sevinirəm. Birləşmiş Ştatların şirkətləri dünyanın müxtəlif ölkələrinə ən müasir xidmət və texnologiyaları təqdim edir. Bizim şirkətlərin yaxşılar sırasında ən yaxşı olmalarını bəyan etməkdən qürur duyuram. Hesab edirəm ki, AZAL Amerika texnologiyalarını və təhlükəsiz təchizatçılarını seçməklə müdrik qərar vermişdir".

Onu da qeyd edək ki, "Aireon" - "Iridium CommunicationsInc" peyk rabitə operatoru, "NavCanada" şirkəti (Kanada Aeronaviqasiyası), NATS (Böyük Britaniya Aeronaviqasiyası), ENAV (İtaliya Aeronaviqasiyası), "Naviair" (Norveç Aeronaviqasiyası) və İrlandiya Aviasiya İdarəsi ilə əməkdaşlıq edir. Şirkət ADS-Bpeyk əsaslı avtomatlaşdırılmış kosmik asılı müşahidə şəbəkəsindən istifadə etməklə dünyada hava gəmilərinin real zaman rejimində ilk peyk müşahidə sistemini işləyib hazırlamışdır.

Avropa Aviasiya Təhlükəsizliyi Agentliyi (EASA) tərəfindən rəsmi dəstək almış "Aireon" tarixboyu hava müşahidəsi üzrə ilk sertifikatlı təminatçıdır. 2017-ci ilin yanvar ayından 2019-cu ilin yanvar ayınadək "Space-X Falcon 9" raketlərində müvəffəqiyyətlə yerinə yetirilmiş "İridium NEXT" peykinin buraxılışı "Aireon" texnologiyasının əsasını təşkil edir.

# Avarçəkmə ikinci dəfə tarixi torpağımız Qarabağda!

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası (AKAF) ənənəvi "Mingəçevir Reqatası"nı yenidən bərpa edir. 21-23 oktyabr tarixlərində təşkil olunacaq reqatada 15-dək ölkə iştirak edəcək. Azərbaycanla yanaşı, Bolqarıstan, İtaliya, Gürcüstan, Macarıstan, Moldova, Polşa, Qazaxıstan, Rumıniya, Serbiya, Turkiyə, Özbəkistan və Ukrayna komandaları çempionluq uğrunda mübarizə aparacaqlar.

Reqatanın rəsmi açılış mərasimi və yarışların birinci günü müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğal-




dan azad etdiyi Suqovuşanda baş tutacaq. Komandalar oktyabrın 21-i Suqovuşan su anbarında kayak və kanoe növlərində qalibi müəyyən edəcəklər. Qeyd edək ki, bu AKAF-ın işğaldan azad olunan ərazilərimizdə təşkil etdiyi ikinci beynəlxalq turnirdir. Bundan əvvəl federasiya Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilən "Prezident Kuboku-2022" beynəlxalq reqatasını Suqovuşanda təşkil etmişdir.

22-23 oktyabr tarixlərində isə "Mingəçevir Reqatası" "Kür" Olimpiya Tədris-İdman Mərkəzində davam edəcək. Mingəçevirdə avarçəkənlər həm kayak və kanoe, həm də akademik növlərdə yarışacaqlar. Qaliblər diplom, medal və kubokla mükafatlandırılacaq.

*"Azərbaycan"*

# Fransa kütləvi tətilə başladı

## Parisdə ictimai nəqliyyat fasilələrlə işləyir, digər şəhərlərdə isə çoxsaylı etiraz aksiyaları keçirilir

Dünəndən etibarən Fransa həmkarlar ittifaqlarının elan etdiyi, maaşların artırılması və etiraz etmək hüququnun müdafiəsi tələbi ilə kütləvi tətil başlayıb. Bir neçə sektorun, xüsusən də ictimai nəqliyyat, təhsil sistemi və hətta səhiyyənin işində problemlərin yaranacağı gözlənilir. Müşahidəçilər tətilin iqtisadiyyat üçün "qara çərşənbə axşamı"na çevrilə biləcəyindən ehtiyat edirlər.

Son məlumata görə, Parisdə ictimai nəqliyyat və regionlarda qatarlar fasilələrlə işləyir.

Polis paytaxtdakı yürüşlərdə 15-20 min nəfərin iştirak etdiyini bildirib. Ölkənin digər şəhərlərində isə çoxsaylı nümayişlər keçirilir. Ümumi Əmək Konfederasiyasının (CGT) baş katibi Filip Martinezin dediyinə görə, əməkhaqqı məsələsi ölkədə geniş müzakirə olunur: "Bu gün sənayelərarası tətil günüdür, hətta Disneylenddə də tətil edirlər. Minimum əməkhaqqının artırılmasına baxmayaraq, hələ ki onu ayın sonuna çatdırmaq çə-




tindir. Ona görə də bizə növbəti artım lazımdır, minimum əməkhaqqı kifayət qədər artmayıb".

CGT həmkarlar ittifaqı neft emalı sektorunda maaşların artırılması ilə bağlı razılıq əldə edə bilməyib. Yanacaq böhranı başlayandan və hökumət bəzi işçilərin öz yerlərinə qayıtmasını əmr etdikdən sonra həmkarlar ittifaqı hakimiyyəti həm də tətil hüququnu pozmaqda ittiham edərək energetika və nəqliyyat işçilərini, dövlət qulluqçularını, habelə özəl sektor əməkdaşlarını bu aksiyaya qoşulmağa çağırıb.

Atom elektrik stansiyalarında çalışan işçilərin tətilə çıxması ehtimalı xüsusi narahatlıq doğurur.

Bu arada həmkarlar ittifaqları bildirirlər ki, gələn həftə onları çoxdandır baş verməyən hadisələr gözləyir.

Xatırladaq ki, yeni həftə Fransada yaşayışın bahalaşmasına, eləcə də fəalların "iqlim hərəkətsizliyi" adlandırdıqları prosesə qarşı müvafiq şüarlar altında müxtəlif şəhərlərin küçələrində keçirilən etiraz aksiyaları ilə başlayıb.

Təbii ki, bu, yanacaq tədarükünə ciddi təsir edən tətillərlə əhatə olunmuş ölkədə gərginliyi artırıb. Ölkə üzrə neft emalı zavodları və yanacaq bazalarının işçiləri üç həftədir ki, tətil edirlər. Bu, sürücülərin narazılığına səbəb olur. İndi yanacaq tapmaq üçün hətta Parisdə də böyük çətinliklər yaşanır.

Həmkarlar ittifaqları və şirkətlər ilkin razılığa gəldikdən sonra hakimiyyət etiraz hərəkatını "qəbuledilməz" və hətta "qanunsuz" adlandırıb. Buna baxmayaraq, işçilər tətili davam etdirəcəklərinə söz veriblər. Hazırda ölkədə baş verənlər Emmanuel Makronun ikinci prezidentlik müddəti üçün ilk böyük sınaq kimi qiymətləndirilir. O, pensiya sistemində əsaslı yenidənqurma da daxil olmaqla, bəzi iddialı islahatlarını davam etdirəcəyini bildirib.

Fransa vətəndaşları, işçilər, həmkarlar ittifaqı liderləri, eləcə də Emmanuel Makron hökumətinin üzvləri çox çətin bir neçə gün, həftə və ya bəlkə də ayların sınağına hazırlaşırlar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


Azercell

## abunəçilərinin nəzərinə

31.10.2022-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) və fakturalı xətt sisteminə aid nömrələrdə 4G sürətini sınamaq üçün nəzərdə tutulan xüsusi "Metro" internet paketi kampaniyasına qoşulmalar dayandırılacaq.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com<http://www.azercell.com/>**), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 20.10.2022-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan "Şirvan-3" kran gəmisinin Deutz BF6M1015MC köməkçi mühərrikinin ehtiyat hissələrinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 31 oktyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəh., Mikayıl Useynov küç., 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071**

***Tender komissiyası***

## ELAN

"Atəşgah" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti tərəfindən Fərid Tahir oğlu Abbasova verilmiş 1 ədəd CHB (BB403536) icbari əmlak sığorta blankı itdiyi üçün etibarsız sayılır.

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Görmə imkanları məhdud şəxslər (və ya uşaqlar) üçün müyəssər formatlı nəşrlərin hazırlanması", "Əlilliyin düzgün dərk edilməsi istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi" və "Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili" adlı müsabiqələr keçirir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Görmə imkanları məhdud şəxslər (və ya uşaqlar) üçün müyəssər formatlı nəşrlərin hazırlanması", "Əlilliyin düzgün dərk edilməsi istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi" və "Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili" adlı müsabiqələr keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 1 noyabr 2022-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 2 noyabr 2022-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5038)

***Müsabiqə komissiyası***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Ənvər Seyidov ailəsi ilə birlikdə Leyla Seyidbəyovaya əzizi, tibb elmləri doktoru, professor

**OQTAY SEYİDBƏYOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin üzvləri Memarlar İttifaqının qocaman üzvü

**İSGƏNDƏR HƏNİFƏ OĞLU ƏLƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin üzvləri respublikanın Əməkdar memarı Elkin Ələsgərova qardaşı

**İSGƏNDƏR HƏNİFƏ OĞLU ƏLƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6506
Sifariş 2966
Qiyməti 40 qəpik